

Səməndər Nəsibli

# GÖY QURŞAĞI

SƏMƏNDƏR NƏSİBLİ

# GÖY QURŞAĞI

Bakı – 2026

*Redaktor:*
**Gədir Hümmət**

*Korrektor:*
**Rövşən Atakisiyev**

**Səməndər Nəsibli "Göy qurşağı".**

**Bakı, "Füyuzat", 2026, 180 s.**

"Göy qurşağı" kitabında şairin müxtəlif zamanlarda qələmə aldığı şeirlər toplanmışdır.

Qoşma və gəraylı janrlarında yazılmış bu şeirlər dilinin axıcılığı və sadəliyi ilə diqqəti cəlb edir.

Bu kitab müəllifin oxucuları ilə 29-cu görüşüdür. Ümid edilir ki, müəllifin indiyədək publisistik və lirik janrlarda çap olunmuş digər kitabları kimi, "Göy qurşağı" da oxucuların rəğbətini qazanacaqdır.

ISBN: 978-9952-614-65-7

© Səməndər Nəsibli

## ÖN SÖZ

Səməndər Məcid oğlu Nəsiblinin “Göy qurşağı” kitabı sadəcə növbəti şeirlər toplusu deyil – bu kitab uzun illərin düşüncəsinin, müşahidəsinin və mənəvi axtarışlarının poetik ifadəsidir. Oxucularla görüşən üçüncü şeirlər kitabı olsa da, müəllifin ümumilikdə 27 kitabı artıq işıq üzü görmüşdür. Kitab sayı etibarilə “Göy qurşağı” onun 28-ci yaradıcılıq nümunəsidir.

Səməndər Nəsibli yaradıcılığa şeirlə başlasa da, publisistik fəaliyyəti ilə də geniş oxucu auditoriyası qazanmışdır. Onun qələmi həm poeziyada, həm də publisistikada öz sözünü deməyi bacarmışdır.

“Göy qurşağı” kitabında şairin müxtəlif illərdə yazdığı şeirlər toplanmışdır. Bu şeirlərdə zamanın nəfəsi, insanın daxili dünyası, sevginin incə çalarları və vətənə bağlılığın səmimi duyğuları yaşayır. Əsasən qoşma və gəraylı janrlarında yazılmış əsərlər klassik ənənə ilə müasir duyumun vəhdətini yaradır.

Şair yazır:

*Alov desəm ocaq məndən inciməz,*
*Alov dilli bir ceyrandı bu gözəl,*
*Ac qurd kimi gəlib gəmirir baxışı,*
*Dünya boyda bir seyrandı bu gözəl.*

Bu misralarda təşbehlər sadəcə bədii vasitə deyil — hisslərin obrazlaşmış formasıdır. Gözəlin ceyrana bənzədilməsi, dilinin alovla, baxışlarının ac qurdla müqayisəsi onun həm cazibəsini, həm də təsir gücünü poetik dillə ifadə edir.

Səməndər Nəsiblinin poeziyasında insan iki aləmin — maddi və mənəvi dünyanın qovuşduğu varlıq kimi təqdim olunur. Onun şeirlərində fərd sadəcə bir insan deyil, daxili aləmi ilə bütövləşən şəxsiyyətdir. Xarici gözəllik daxili zənginliklə tamamlanır və obraz bütöv bir mənəvi simaya çevrilir.

Şairin aşağıdakı misraları bu vəhdəti daha aydın göstərir:

*Özün bir aləmsən, sözün bir aləm,*
*Yer edib köksündə bu iki aləm.*
*Həm mənim baş tacım, həm mənim ailəm,*
*Keçməsin aləmdə növraqım sənsiz.*

Bu poetik müraciət sevginin həm mənəvi, həm də həyatın dayaq nöqtəsi olduğunu göstərir. Şair üçün insan təkcə varlıq deyil, dəyərdir, dayaqdır, bütövlükdür.

"Göy qurşağı" adının özü də rəmzidir — müxtəlif rənglərin vəhdəti kimi, bu kitab da müxtəlif duyğuların, düşüncələrin və həyat müşahidələrinin bir araya gəldiyi poetik bir bütövlükdür.

Şairin bu kitabında ictimai-fəlsəfi məzmunlu şeirlər üstünlük təşkil edir. Onun Məmmədəmin Rəsulzadə həsr etdiyi şeir xüsusi diqqət çəkir:

*Əsirlərlə cəhalətin əlindən*
*Parçalanıb inləyirdi bu vətən.*
*Od götürüb cəhənnəmin dilindən,*
*Zülmətləri yara-yara yaşadın.*

Bu misralarda şair qədim yunan mifologiyasındakı Prometey obrazına işarə edir. Zevsdən odu oğurlayıb insanlara bəxş edən Prometey kimi, Rəsulzadə də xalqına azadlıq və müstəqillik ideyasını gətirən tarixi şəxsiyyət kimi təqdim olunur. Biri əfsanəvi, digəri isə real tarixi qəhrəmandır.

Şair belə qənaətə gəlir ki, şəxsiyyətin böyüklüyü onun xalqı üçün nə dərəcədə faydalı olmasından və yaddaşlarda necə yaşamasından asılıdır:

*Vətən eşqi kök salmışdı canında,*
*Vulkan olub tez püskürdün axırda.*
*Azadlığa qurban getdi canın da,*
*Həkk olunub yaddaşlarda yaşadın.*

Burada ən ali və müqəddəs məqamın xalqın yaddaşında əbədiləşmək olduğu vurğulanır.

Ümumilikdə, poeziya idrakın bir qanadı kimi təbiəti və cəmiyyəti elmi şəkildə təhlil etmir; o, sözün bədii gücü ilə aləmin görünən və görünməyən tərəflərini təsvir edir:

*Bir pətəkdi, bir barmaqdı, bir də tam,*
*Kimə azdı, kimə çoxdu bu həyat.*
*Qapısına boş gələnlər boş gedir,*
*Səxavətdən əzəl yoxdu bu həyat.*

Həyat zaman və məkanın insan taleyindəki roludur. Şair onu təhlil etməkdən çox, poetik dillə təsvir edir:

*Dövr eləyən gecə-gündüz boş deyil,*
*İnsan oğlu ağac deyil, daş deyil.*
*Ruh sahibi gövdə üstə boş deyil,*
*Başsız olan bir xilqətdən gəl danış.*

və ya

*Həyat bir oyuncu, insan oyuncaq,*
*Tutuşu bilinməz, atı bilinməz.*
*Hər kəsə bir sürət, bir yeriş verir,*
*Kim necə çapdırır, atı bilinməz.*

Bu poetik deyimlərdə idraka yönəlmə, həqiqəti duymaq və ona qovuşmaq istəyi açıq şəkildə hiss olunur. Cəhd və yönəlmə məqsədə çatmağın əsas vasitəsidir.

Ümid edirik ki, Nəsiblinin oxuculara təqdim etdiyi "Göy qurşağı" kitabı kitabsevərlər tərəfindən layiqli qiymətini alacaqdır.

**Qivami Qaziyev,**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent, Azerbaycan Yazıçılar Birliyinin üzvü, Prezident mükafatçısı.*



# QOŞMALAR GƏRAYLILAR

## QABAQDA

At belinə qalxıb düşən taleyin
Fırtınası, küləyi var qabaqda.
Bu gün gülür qəh-qəh ilə kefi kök,
Üzü üstə çökməyi var qabaqda.

Əksi olan rəvan axan suların
Aşiq olur üzüşünə quların.
Kim nə bilir getdiyi o yolların
İblisi var, mələyi var qabaqda.

Bu taleyin keşməkeşli yolu çox,
Enişi çox, yoxuşu çox, qolu çox.
Yağış yuyur əldən salır dolu çox
Hiyləsi var, kələyi var qabaqda.

Məhəl qoymur yaxşı-yaman halına,
Zəhər qatır pətəyinə, balına
Çırpıb qatır dəymişini, kalına
Xəlbiri var, ələyi var qabaqda.

Tülkü sifət əcəl durub sülənir,
Oba-oba, oymaq-oymaq dilənir,
Səməndərin alovunda bələnir
Beşiyi var, bələyi var qabaqda.

*20.03.2024.*

# GÜMANDAN KEÇİR

Bir gün toya getdik, bir gün də yasa
Bununla ovunduq biz heç olmasa.
Ömür nə gödəkmiş, zaman nə qısa
Heyif ki, mənası yalandan keçir.

Qəpik tək xərclədik vaxtı boş yerə,
Zənn etdik əyləncə vaxtı
Baxırıq boylanıb ötən günlərə,
Bu gün də düzənin yanından keçir.

Ötür qərib-qərib durna qatarı,
Qəriblik bürüyüb daş xəyalları,
Ötən günlərimin boş kərvanları
Qayıdıb birbəbir bu andan keçir.

Qulağa dan gəlir bülbülün səsi,
Soyuyub elə bil gülün nəfəsi,
Hayqırıb kükrəyən gənclik həvəsi,
Üzü qışa tərəf dumandan keçir.

Ağ papaq kimidir zirvədəki qar,
Ömür dolaylarda qalıbdı naçar,
Səməndər, daralıb gəzdiyin yollar,
İynəyə saplanıb gümandan keçir.

*22.01.2024. Tovuz Qovlar şəhəri.*

## GƏTİRSİN

Külək cərşənbəsi gəlir, xoş gəlir
Özüylə ətirli nəfəs gətirsin.
Yuxudan oyatsın gülü, çiçəyi
Qəlblərə işıqlı həvəs gətirsin.

Mürgülü torpaq da oyansın yenə,
Toy, nişan libası geysin əyninə.
Çıxsın gözəlləşib eşqin seyrinə,
Sevən ürəklərə bir dərs gətirsin.

Göylə yer arası bir nida yolu,
Mömin bəndələrin uzanan qolu,
Hər kəsə göylərdən məhəbbət dolu,
Turu nur eyləyən bir səs gətirsin.

Şeytanı, iblisi Qafdan o yana
Qovlasın canları hey yana-yana,
Xoş olan nə varsa bütün insana,
Toplayıb o yandan qoy dəs gətirsin.

Tez haqqa qovuşsun ucan arzular,
Kəsməsin önünü qara buludlar,
Səməndər üz tutur sizlərə, dostlar,
Qəlbinə xoş dilək hər kəs gətirsin.

*12.03.2024. Tovuz. Qovlar.*

# GEDƏRİK

Tanrının verdiyi bir dolab suyuq
Tökülüb torpağa hopub gedərik.
Ya ətirli bir gülük, ya yabanı ot
Fırtına əliylə qopub gedərik.

Ötər neçə zaman, neçə qərinə,
Bilmirəm xatirə nə qalacaq nə?
Kim dərə dibinə, kim dağ belinə
Kim hara layiqsə çapıb gedərik.

Hər zaman görünən ulduz deyilik
Gördüymüz gözlərə bəsdi göründük
Bu gün sona yetdi, deyək, hələlik
Sabaha bir yol tapıb gedərik.

Nə qədər bi muraz olub gedən var,
Əlləri çöllərdə qalıb gedən var.
Həyatda sağ ikən ölüb gedən var,
Sağların əlindən sapıb gedərik.

Səməndər hazırlaş nur səfərinə,
Uzat əllərini haqqın əlinə,
Məkan çardağında vaxt təndirinə,
Biz də kündəmizi yapıb gedərik.

*16.03.2024. Tovuz. Qovlar.*

# İKİLİK

Bax bu gün yamanca ikiləşmişəm
Fikirlər ikiyə bölübdür məni.
Özümdə olanla hey didişmişəm
Birim eşitməyir, birim deyəni.

Sözləri düz gəlmir bu ikiliyin
Ayrılan yollar da düzələ bilmir
Bir-birinə qarşı iki istəyin
Quyusu dərindir, dibi görünməz.

Düşübdür içimdə yollar dolaşıq
Duman sıs basıb hər yanı tamam
Hara boylanıram qatma-qarışıq
Ya zaman dəyişib, ya qocalmışam.

Beynimdə elə bil məclis qurulur
Parlament də qərar çıxara bilmir
“Baş nazir” özü də çaşıb vurnuxur
Bir yekdil qərarı gözə görünmür.

Qorxuram bu halla düşəm dillərə
Eyləyə bilmirəm dərdimi agah
Vətənim bölünüb bir neçə yerə
Özüm bölünmüşəm ikiyə Vallah.

*24.02.2024. Tovuz. Qovlar.*

## DÖZMÜŞÜK

Həyatın verdiyi hər bir sitəmə
Köşələnə-köşələnə dözmüşük.
Bir dağ imiş çiynimizdə sən demə
Eşələnə-eşələnə dözmüşük.

Şaxtasına gülə-gülə donaraq,
Buza dönüb qapısına qonaraq,
Atəşinə gizli-gizli yanaraq,
Pöşələnə-pöşələnə dözmüşük.

Ay Səməndər, nə veribsə haqq verib,
Yer üzündə o baqidi biz qərib.
Bütöv ömrü kirov qoyub haq verib,
Şeşələnə-şeşələnə dözmüşük.

*Tovuz-Qovlar. 22.03.2024.*

* * *

Bürmələnib bükülmüşük,
Bir ömürün boxçasına,
Düzülmüşük, dikilmişik,
Bənd olaraq axcasına.

Kaş ömrünə hər bir kəsin,
Açıb tale xoş kisəsin,
Sevinc, şadlıq səpələsin,
Yağış kimi bağçasına.

Sağlam canla, nazı nemət,
Xoş ləyaqət, təmiz ismət.
Saf məhəbbət, açıq hörmət,
Qonsun dostlar taxcasına.

Səməndərə söz əlacı,
Xoş gün olsun qoy baş tacı,
Hər bir qardaş, hər bir bacı,
Hey yaşasın, "ox!....casına".

## GƏL, "HƏLƏLİK..." SÖYLƏ, "ƏLVİDA!..." DEMƏ!

Çalış həsrətini vüsala çevir,
Gəl, "hələlik..." söylə, "əlvida!..." demə.
Bu həyat səbr ilə dözümü sevir.
Gəl, "hələlik..." söylə, "əlvida!..." demə.

Hələ çatmamışıq yolun sonuna,
Kim bilir az qalıb, çox qalıb ona,
Kədəri, qüssəni atıb bir yana,
Hər ötən axşama, hər ötən günə,
Gəl, "hələlik..." söylə, "əlvida!..." demə.

Daşın da daş kimi bərki, boşu var,
Eşqi nə anlayır ürəyi daşlar,
İlk daşdan başlayıb bütün savaşlar,
Amandı, nə olar, bu daşa gəlmə.
Gəl, "hələlik..." söylə, "əlvida!..." demə.

Hələlik ömürün vergülü olur,
"Əlvida" – hər şeyə nöqtə qoyulur.
Bu sözlə körpülər uçur, oyulur,

Olmayır irəli, geriyə dönmə,
Gəl, “hələlik...” söylə, “əlvida!...” demə.

Həyatın mənası elə bir ani anda,
Dəyişir büs-bütün ani zamanda,
Səməndər, gəl qoyma oxu kamanda,
Atmağa bir imkan düşməz əlinə,
Gəl, “hələlik...” söylə, “əlvida!...” demə.
Gəl, “hələlik...” söylə, “əlvida!...” demə.

*23.03.2024. Tovuz.*

## İLİM HEY

Bir əlim bu gündü, bir əlim sabah,
Dirək oldu ortalıqda belim hey...
Axıb gedir dağ selitək vaxtı-zamanım,
Günü, ayı çalıb-çapdı ilim hey...

Dərd bəlanın nə önü var, nə ardı,
Qardaş, bacı nəyim varsa apardı.
Ata-ana ürəyimi qopardı,
Yetim qalıb nalə çəkdi dilim hey...

Əcəl məni min yol əkdi bitirdi,
Dərd qovladım, qəm kərvanı gətirdi.
Neçə dostu əbədiyyətə ötürdü,
Yetəmmədi əllərinə əlim hey...

Mən nə deyim oğru, qatil illərə,
Dinləmədi ah-amanım bir kərə,
Döyüşlərdə sinəm döndü sipərə,
Dörd yanımda at oynatdı ölüm hey...

Diriykən Səməndərə gor oldum
Öz-özümdən daha bezdim, yoruldum.
Yana-yana alovumda qor oldum
Qucaqlayıb layla çaldı külüm hey...
Qucaqlayıb layla çaldı külüm hey...

## QALMIŞAM

Cənnət getdi illərində gəncliyin,
Arxasınca baxa-baxa qalmışam.
Azıb getdi yoxuşlarda şənliyim,
Nisgilimlə çıxa-çıxa qalmışam.

Dağ görüncə zirvəsinə can atdım,
Qocalığı sirkələdim, oyatdım,
Cəfasına ürəyimi qanatdım,
Dişlərimi sıxa-sıxa qalmışam.

Əks elədi sifətimdə dərələr,
Calaq oldu bir-birinə bərələr,
Qarışdıqca bir-birinə qəm, qəhər,
Hey alışıb yana-yana qalmışam.

Vaxtsız yağdı, dağlara qar ələndi,
Saç-saqqalım düm ağ qara bələndi.
Mən göylərə, göylər mənə dirəndi
Guruldayıb çaxa-çaxa qalmışam.

Təbiətlə əzəl gündən bir olduq,
Bir torpağıq, bir havayıq, bir oduq.
Ay Səməndər, əslimizə yol aldıq,
Mənzil üçün axa-axa qalmışam.

# GÜL AÇIB

Bahar gəlib, deyən yenə, sevgilim,
Dağ laləsi yanağında gül açıb.
Qızıl güllər dəyişibmi yerini?
Qönçə bu gün dodağında gül açıb.

Ulduz qonub gözlərindən su içir,
Üzərindən qoşalaşmış ay keçir,
Kipriklərin hədəf üçün ox seçir,
Zülfün enib buxaqında gül açıb.

Elə sandım təbiətin özüsən,
Ətir saçan tər güllərin cəmisən,
Nə nərgizsən, nə bənövşə, nə susən,
Hamsı gəlib qucağında gül açıb.

İstərdim ki, dönə-dönə məsq edim,
Surətini ürəyimə nəqş edim,
Cürət edib bircə kəlmə söz dedim,
Gördüm qəlbim ayağında gül açıb.

Səni gördüm bütün dərdim kiridi,
Açıb tökdün neçə bağlı kilidi.
Bu gün gülüm sevənlərin günüdü.
Səməndər də sorağında gül açıb.

## QALIRIQ

Bir gün bahar fəsli çiçək kimiyik,
Yollarda, izlərdə bitib qalırıq.
Ömür verilməyib bizə çox illik,
Payız yarpaqları töküb qalırıq...

Bir gün ləpələnən dəniz oluruq,
Nə varlıq bilirik, nə də ki yoxluq.
Buluda qalxırıq sonra bir anlıq,
Ələnib torpağa çöküb qalırıq.

Bu vərdiş deyil öz əlimizdə,
Torpaqdı axırımız, əzəlimiz də,
Bir həyat eşqi var gözlərimizdə,
Onu da torpağa əkib qalırıq.

Bir dünya qururuq qəlbdə həlalik,
Gedirik hərlənib yenə gəlirik.
Məqam gələn vaxtı hələ üstəlik,
Dünyanı-dünyaya büküb qalırıq.

Səməndər, dünyada ötəri deyilik,
Ya daşıq, torpağıq yetəri deyilik.
Allahın quluyuq, nökəri deyilik.
Onun dərgahında bitib qalırıq.

## GƏLƏNİN

Müqəddəsdi orucluğun hər günü
Bu günlərin savabına bələnin.
Nur gətirsin gülə-gülə səhərlər
Xoşhal çıxın qarşısına gələnin.

Ötüb keçsin toy-bayramla günümüz,
Şad xəbərə qanad olsun ünümüz,
Tez tapasız nə istəsə könlünüz,
Qoy bol olsun ömrü-günü gülənin.

Daim gülsün harda olsa dost üzü,
Xəbər tutsun dostdan gərək dost özü.
Bir ümiddi ürəyində dost sözü.
Bu dünyada qədir-qiymət bilənin.

Yağış-çiskin qorxutmasın sizləri,
Xatırlayıb çözələyin izləri.
Görəcəksiz neçə günəş üzləri.
Yada salıb hərdən-hərdən dillənin.

Səməndərin arzusudur hər zaman,
Yada salsın bir-birini dost olan,
Yaxşı bilir zirvələrə yol alan.
Keçidini, aşrımını bələnin.

## EŞQ

Həyat bizi bir tar üstə cəmləyib.
Pərdə sənsən, simi mənəm, mizrab eşq,
Ruhumuzu gah zil edib bəmləyib.
Tanrının xoş tövhəsidir bu tab, eşq.

Mizrab vurur, nalə çəkib ötən mən,
Car edirsən bu sirrimi de nədən?
Hər ikimiz bir bədəndə sinədən.
Haray çəkib, dərd eyləyir xitab eşq.

Eşq sıxdıqca, qəm, dəm oxuduq
Bir ürəyə neçə naxış toxuduq.
Duyğularda min cür ətir qoxuduq,
Canım sənin, ruhun mənim mehtab eşq.

O olmasa nə mən dindim, nə də sən.
Duyulduqca oxuyuruq nə desən.
Hər avazda eşitsən də min əhsən,
Deyən yoxdu, nədir bu əzabi eşq.

Alət olduq bəxt taleyin əlində,
Hey daşındıq ömür-günün belində
Min sual var Səməndərin dilində
Nədi həyat? Nədi məna? Cavab: -Eşq!...

## YAZIB

Qırışlar hər ömrün misralarıdı,
Kağız tapanmayıb üzlərə yazıb.
Hər qırış keçmişdən bir yadigardı,
Vəsiyyət eləyib bizlərə yazıb.

Enişli, yoxuşlu həyat yolları,
Min məna anladır hər misraları.
Sevincli, kədərli, qəm duyğuları,
Dolğun mənaları gözlərə yazıb.

Fikrə sığışmayan ağrı, acılar,
Nakam sevgiylə başlayan anlar.
Ürəkdə çovğunlar, eşqdə tufanlar,
Sözünü atəşə közlərə yazıb.

Hər qoca üzündə yüz nağıl yatır,
Yüyənə uymayan atlar oynadır,
Elə bil dənizdən gələn dalğadır,
Səsini-küyünü düzlərə yazıb.

Səməndər, yaranıb hökmü xudadan
Onunçün müqəddəs sayılır insan.
Kitaba çevrilir qocalan zaman
Tanrı bu kitabı sizlərə yazıb.

# ÇIRPIŞDIRIR

Tarix boyu cibə girib gizlicə,
Maraqla əlləyib şey cırmaqlayır,
Xislətində ya yalandı, ya hiylə
Quzğuna güvənib ley cırmaqlayır.

Sahibləri gecikdirib yalını,
Özü sorur ondan-bundan halını,
Elə qırdıq qanadını-qolunu,
Yer tutmaz ayağı, göy cırmaqlayır.

Xülyasıydı iki dəniz arası,
Qərtmək tutmur ürəyinin yarası.
Türk yurdudu Vətəninin parası
Ətrafa göz dikib, hey cırmaqlayır.

Qonşuların mətbəxində pişikdi,
Oğurlayır girib hara deşikdi
Öz yatağı yadlar üçün beşikdi.
Əyilib hər kəsdən mey cırmaqlayır.

Mənimsəyir nəğmələri dilimdən,
Oğurlayır adətləri elimdən
Ay Səməndər, qamarlayıb əlimdən,
"Duduk" adlandırıb ney cırmaqlayır.

## QALMIŞAM

Nə deyim dostların düz sözlərinə
Bir ömür xəlvətdə yatıb qalmışam.
Ən nəhəng balıqlar ummanda olur,
Gölməcə içində batıb qalmışam.

Qaçdım şəhərin hayı-küyündən,
Sakitlik üzündən, dinclik üzündən.
Dahi insanların çıxıb sözündən,
Xeyməmi bir kəndə atıb qalmışam.

Dəftərim torpağa, əkinə döndü,
Lapatka əlimdə qələm göründü.
Arxamca minlərlə misra süründü.
Önümdə çox bəndi qatıb qalmışam.

Tək tənha söz dedim, dilim yoruldu,
Düz sözün üstündə meydan quruldu.
Dirçələn ümidin boynu vuruldu
Başını quruşa satıb qalmışam.

Dostları səslədim – tənhayam indi,
Qocalıq atılıb boynuma mindi.
Neyləyim bu qismət Səməndərindi
Son mənzil başına çatıb qalmışam.

# GƏLƏRƏM

Bir görüş yerinə gəl, səslə, ey dost,
Lap qaranquş kimi uçub gələrəm.
Oyuncaq görmüş körpə uşaq tək
Həsrətin əlindən qaçıb gələrəm.

Gənclik illərimin xatirəsini,
Çox illik həsrətin qəm nəğməsini,
Qocalmış vüsalın ayaq səsini
Sancaq tək sinəmə sancıb gələrəm.

İllərdi bu görüş fərağındayam,
İtmiş gəncliyimin sorağındayam.
Dükənmiş dağ yolu qırağındayam
Kolları, kosları qucub gələrəm.

Bilmirəm bu görüş kimin ağlıdı,
Ayrılıq əlindən sinəm dağlıdı.
Demə ki, qismətin yolu bağlıdı
Paslanmış kilidi açıb gələrəm.

Səməndər, bir şirin sözə təşnəyəm
Ocağa təşnəyəm, közə təşnəyəm.
Açığı, a dostlar, sizə təşnəyəm.
Bir az da üstəlik acıb gələrəm.

## BAĞIŞLAR

Bizim el içində belə məsəl var,
Dost-dosta ya alma, ya at bağışlar
Verilən nəmərin qiyməti yoxdu
Düşəndə əvəzin minqat bağışlar.

Sən bütün rəmzləri keçdin, Əlağa,
Bənzədin qaynayıb-coşan bulağa,
Hər sözün qəlbimi döndərib dağa,
Qızıl an bağışlar, saat bağışlar...

Qəlbimin atəşi ocaqdan gəlib
Səsinin rəndəsi o haqdan gəlib.
Nəğməkor dərvişdi uzaqdan gəlib.
Hər uman könülə büsat bağışlar.

Ən gözəl tərifə uyarı çoxdu,
Ariflər yanında meyarı çoxdu
Sərraf bazarında əyyarı çoxdu,
Versən dəyərində elat bağışlar.

İtirdik gəncliyin hərarətini,
Qalıbdır qabaqda yolun çətini.
Kəsmə Səməndərdən sədaqətini,
O sənə söz adlı sovqat bağışlar.

# VARMIŞ

Təbiətlə insan ittifaq qurub
Əlavə eşq adlı tayı da varmış
İnsana təbiətin bəxşişi çoxdu
Uşaqlıq, cavanlıq payı da varmış.

Quşlar da dil açır may gələn kimi,
Qanlar coşa gəlir yay gələn kimi.
Payız yağışları zay gələn kimi,
İlin yaxşısı da, zayı da varmış.

Gül çiçək üstünə enir yağışlar,
Sevgiylə, şəfqətlə ömür bağışlar,
Gah gülər, gah ağlar qərib baxışlar
Ömrün çiçəkləyən mayı da varmış.

May da gənclik kimi həlimdi, xoşdu,
Bir də görürsən ki, kükrədi-coşdu.
Buludlar kişnədi, sel, sular daşdı
Ellərə toy tutan çayı da varmış.

Səməndər, həyatın sirri çox dərin
İçində bəla var gözəlliklərin.
Qaldıq arasında xeyirlə, şərin
Toyla keçən günün vayı da varmış.

## QOCALIQ

Mənzil uzaq, ömür fani, yol qısa
Yol üstündə bir mələkdi qocalıq
Günü ayrı, çeşidləyib beləcə
Yavaş-yavaş ələnməkdi qocalıq.

Hərarəti uçub gedib canından,
Xəstələnir yel də keçsə yanından,
Past atıbdı çıxa bilmir qınından
Bükülməkdi, bürünməkdi qocalıq.

Hey boylanır keçən günün dalınca.
Qəhərlənir bir-bir yola saldıqca.
Gecələri balınca baş qoyunca
Xəyalları sürünməkdi qocalıq.

Soyuq düşür, boran gəlir, qış gəlir
Ağrıları nə yorulur, dincəlir,
Ahı-ofu buludlara yüksəlir
Bulud kimi görünməkdi qocalıq.

Xəyalları dağda-daşda teylənir
Yolda, izdə görünməyi seyrəlir
Ay Səməndər, bəlkə çoxu bilməyir.
Şama dönüb, əriməkdi qocalıq.

## GÖZ AÇMIŞ O BİVƏFA

Gənclikdi başdan-başa bağü gülüstan,
Zövgünə dalmaq üçün vermədi imkan.
Elə bil səhra içrə qopdu burulqan,
Verərək cövrü cəfa gəldi də getdi,
Ömrə bahar bir dəfə gəldi də getdi.

Çəkdi çox sığala o, nazlı mələk tək,
Dolanıb dövr elədi ömrü çiçək tək.
Əbədi tərk elədi bizi fələk tək,
Etmədi əhdə vəfa gəldi də getdi,
Ömrə bahar bir dəfə gəldi də getdi.

Yandırıb kül elədi canımı ey vah,
Olmadı heç doyunca halıma agah.
İstədim çarə edə dərdimə hər gah.
Etmədi amma səfa gəldi də getdi,
Ömrə bahar bir dəfə gəldi də getdi.

O imiş sən demə ki, cənnəti-gülşən,
Edər öz nuru ilə qəlbləri rövşən.
Nə adı, nə kəlamı düşmədi dildən.
Göstərib ani qafa gəldi də getdi
Ömrə bahar bir dəfə gəldi də getdi.

Gəlişi çəkmiş idi gözlərə pərdə,
Gedişi heykəl qurdu xatirələrdə
Səməndər eylədi bu Səməndəri də
Göz açınca o bivəfa gəldi də getdi,
Ömrə bahar bir dəfə gəldi də getdi.

## QAYITDIM

Xəyal köhlənini minərək yenə,
Gənclik obasına çapdım, qayıtdım.
Dəyməmiş kimsənin əli əlimə,
Dolanıb yanından sapdım, qayıtdım.

Pəjmurdə gəncliyim mənə yanaşdı,
Saçları pərişan, gözləri yaşlı.
Gör necə kükrədi, gör necə daşdı
Özümü sel-suda tapdım, qayıtdım.

İlişib qalmışdım yolasanda mən,
Ölən də mən idim, dolaşan da mən.
Bu ölümlə-dirim qovuşanda mən,
O kövrək eşqimi qapdım, qayıtdım.

Çox gəzib dolaşdım olub-keçəni,
Cismim inkar edir ruhum deyəni.
Boşaldı əlimdə atın yüyəni,
Qəlbimi təndirə yapdım, qayıtdım.

İlk məhəbbətimin kövrək qolunda,
Gəzdim Məcnun kimi sağı-solunda.
Səməndər, o təmiz eşqin yolunda,
Fərhad tək dağları çapdım, qayıtdım.

# VAXTIDI

Yenə verin siz baş-başa, bacılar,
Qəmi kəmə sallamağın vaxtıdı
Tənha tonqal qalamaqdan yorulduq,
Qoşa tonqal qalamağın vaxtıdı.

Ətir saçsın dodağınız-diliniz
Şad günlərə kəmərlənsin beliniz
Bayram etsin hər obanız, eliniz
Toyu-toya calamağın vaxtıdı.

Necə ildi haqlamışdı daş bizi,
Hey boğurdu qəhər bizi, yaş bizi,
Kədər daha ağlatmasın kaş bizi,
Sevinc ilə ağlamağın vaxtıdı.

Otuz ildə el-obamız talandı,
Tonqalımız qəlbimizdə qalandı.
Dəmir yumruq düşmən üçün yarandı,
Alov olub dağlamağın vaxtıdı.

Oğul,uşaq, nəvələrdən yarıyın,
Xoşbəxtliyin qucağında qarıyın,
Gülə-gülə Səməndəri arayin,
Daha dostlar aramağın vaxtıdı.

## BAŞIMA

Nə deyim, nə deyim bəlalı eşqim,
Tale tez çıxartdı səni başıma
Ömrümün baharı zimistan oldu
Sovurdun boranı, çəni başıma.

İçimdə daşıdım hey nəfəsini,
Duymadım heç zaman özgə səsini,
Ürək oxuduqca eşq nəğməsini
Həsrətlə əlǝdin dəni başıma.

Kimsə inkar etməz bu həqiqəti,
Unutmaq çətindi ilk məhəbbəti.
Yüz naz-qəmzə ilə silinməz qəti,
Yığılsa gözəlin mini başıma.

Həsrətlə dolanan həyat yolları,
Puç etdi ömrümü yarı ba yarı.
Səməndər qovduqca bu əzabları
Yığıldı hikkəsi kini başıma.

## GÖZLƏMƏK

Saatlarla iş görməyə nə var ki,
Çətin olur bir müdiri gözləmək.
Qapı önü, adam çoxdu, səbr yox,
İlə dönür bu qədəri gözləmək.

İş dalınca muntəzirdi, bil, hamı,
Müdirədir hər gələnin inamı.
Çoxlarının daşa dəyir gümanı,
Ağır gəlir qəm-kədəri gözləmək.

Nə olacaq, nə keçəcək bilən yox,
Göz saralır, qəlb daralır gələn yox.
Bilirlər ki, gözləməkdən ölən yox,
Axır qalır bir təhəri gözləmək.

Bu pis adət hər tərəfə tən düşüb
Gözlətməklə qədd əyilib, cib şişib.
Məmurların qazanında çox bişib
Bu səhərdən o səhəri gözləmək.

Belə keçir müdirlərin günləri,
Rüşvət olub imanları, dinləri.
Səməndərə durub axşam-səhəri,
Zəhər olur xoş səməri gözləmək.

## ÇOXDU

Bu nəhəng dünyanın, bu dev dünyanın
Üstündə iblisi, cinləri çoxdu
İynəni atsan da torpağa düşməz
Hər uca sarayda minləri çoxdu.

Hamsının əlində dəyirman daşı,
Üyüdüb udurlar zəri, daş-qaşı.
Bu dövlət savaşı, bu var savaşı,
Olmayan zamanı, günləri yoxdu.

Haraya baxırsan qandı, qadadı.
Sanki vəhşi dolu geniş adadı.
Kim kimi yedi, boğdu, daladı
Bilinmir, hər yerdə hinləri çoxdu.

Haqsızlar minərək haqqın belinə,
Səyırdır qamçını alıb əlinə,
Aslanlar söz olub tülkü dilinə,
Çaqqalın pələngə kinləri çoxdu.

Səməndər, həyatın nədir bu adı?
Dünya beş barmağın tutumundadı,
Alimlər cahilin buyruğundadı,
Tərsinə dünyanın ünləri çoxdu.

## HƏR GÜNÜN SAATIN HÖKMÜ VAR İMİŞ...

Zaman bölünsə də aya illərə
Hər saat, hər anın hökmü var imiş.
Müttəfiq olsa da zaman məkanla
Üstündə əşrəfi insanlar imiş.

İnsansız məkan da, zaman da belə,
Sayılmaz heç vaxta, zamanda belə.
"Ucu" hey birlikdə tutub əl-ələ
Allahın gözündə ucalar imiş.

İnsansız kainat dadsız olardı,
Kimsəsiz uşaq tək adsız olardı,
Ocaqsız olardı, odsuz olardı,
Dünya da insanla bəxtiyar imiş.

Dağlar da insanla ucalıq tapıb,
Göylərin odunu əlindən qapıb.
Onlardan öyrənib qocalıq tapıb,
Hər şeyi öyrədən qocalar imiş.

Günəş xanəsinə çöksə qaranlıq
Zaman da, məkan da, biz də donarıq.
Səməndər, kainat elə bir anlıq
Yaradan hökmüylə bərqərar imiş.

## MƏNƏM

Xəyallar içində batıb qalmışam.
Sel sular da mənəm, saman da mənəm.
Sevinclə, kədərlə yoğurulmuşam
Qəh-qəhə də mənəm, aman da mənəm.

Yamanca qatışıb hisslərim, gülüm,
Bilmirəm ağlayım, bilmirəm gülüm.
O həsrət dodaqdan bircə təbəssüm
Ummayan da mənəm, uman da mənəm.

Düzülüb tərpənir karvan yerindən,
Hələ oyanmayıb sərvan yerindən,
Adlayıb keçirik dağın sərindən,
O karvanda mənəm, sərvan da mənəm.

Cadudur, sehrdir bilmirəm nədir,
Ən qızğın yarışlar beynimdə gedir.
Məğlubla, qaliblər iki tirədir
Uduzan da mənəm, udan da mənəm.

Bir cavan oğlanı qoca danlayır
Gahdan dürtmələyir, gah tumarlayır
Səməndər, kim-kimdən imdad arayır
Bax, qoca da mənəm, cavan da mənəm.

## GƏTİR

Yuxuda görüşdüm taleyimlə mən
Dedim qaytar məni, təzədən gətir.
Gənclyik çağlarıma qayıdım həmən.
Qaraldıb saçımı təzə dən gətir.

Alsın dövrəsinə gözəllər yenə,
Hər gözəl-gözəli göz əllər yenə,
İltıbaş eyləsin göz, əllər yenə.
Verdiyin nə varsa təzədən gətir.

Qoy Səməndər quşu hey yana-yana,
Gəlib Səməndərlə uçsun yan-yana.
Köhnədən qalanı qoyaq bir yana,
Alovda süslənmiş təzə dən gətir.

## OLSUN

Balaca daxmamdan böyük dostlara
Ürəkdən atəşin salamlar olsun.
Xeyirlə açılsın səhər müşdəsi
Dillərə dad verən kəlamlar olsun.

Könüldə bəslənsin sağmal inəklər,
Sağılsın döşündən arzu-diləklər.
Daşısın dərgaha alıb mələklər,
El-oba içində bol toylar olsun.

Təbəssüm itməsin gül üzünüzdən,
Heç əksik olmasın nur gözünüzdən,
Çəkilib qorxmayın öz-özünüzdən,
Həyatda sağlam can, əldə var olsun.

Qaranlıq gecəni ay işıqladar,
Ömürdə olmasın kaş qaranlıqlar.
Sevən ürəklərdə gül açsın bahar,
Cəmi cavanlara Tanrı yar olsun.

Gecələr tələsir gündüzə tərəf
Çığır-cığıralara, iz-izə tərəf,
Səməndər can atar hey sizə tərəf,
Təki dost arası xoş yollar olsun.

## İSTƏYİR

Hər könüldə bir ümman var
Gölüm məndən nə istəyir?
Çalxalanır – suyu yoxdu
Selim məndən nə istəyir?

Bənzəri var dağda qara,
Könül verib buludlara,
Hey dağılır ora-bura,
Telim məndən nə istəyir?

Lazımsızı ələ alır,
Lazımlını əldən salır,
Bir də gördün donub qalır,
Əlim məndən nə istəyir?

Mən umurdum ləli-kövhər
Səpələsin axşam-səhər
Kimə qənddi, kimə zəhər
Dilim məndən nə istəyir?

Səməndəri edib xəstə.
Ümid yerim olan kəs də
Hey dolanır başım üstə
Ölüm məndən nə istəyir?

## BALALAR

Çalxalanan dəryaların ümmanın,
Qovğalarla pəncələsən dünyanın,
Gələcəyə açılacaq zamanın
Ən qiymətli nemətisiz balalar,
Qeyrətisiz, hünərisiz, balalar!

Əsasısız hərköməyin, yardımın,
Əsgərisiz siz sabahkı ordunun,
Bu dillərə dastan olan yurdumun,
Beldə qızıl kəmərisiz, balalar,
Qeyrətisiz, hünərisiz, balalar!

Qaçırmayın yaşamağın dadını,
Siz ucaldın Yanıqpəyə adını,
Nurlandırın ocağını, odunu.
Bu ocağın közlərisiz, balalar!
Qeyrətisiz, hünərisiz, balalar!

Vətən üçün qəlbinizdə od çatın.
Gecə-gündüz haqq yolunda at çapın.
Əl yetməyən zirvələrə yol tapın.
El-obanın bəhərisiz, balalar,
Qeyrətisiz, hünərisiz, balalar!

Qəhramansız röyalarda gördüyüm.
Ulduz kimi səmalardan dərdiyim.
Qocalıqda geri dönən gəncliyim.
Səməndərin səhərisiz, balalar,
Qeyrətisiz, hünərisiz, balalar!

## BİLİNMƏZ

Həyat bir oyunçu, insan oyuncaq
Tutuşu bilinməz, atı bilinməz.
Hər kəsə bir sürət, bir yeriş verib
Kim necə çapdırır atı bilinməz.

Araya girsə də qara buludlar,
Günəşlə, torpağın öz ülfəti var,
Xeyrə can atsa da əsli olanlar,
Min fəsad törədir zatı bilinməz.

Yaranan yaradan körüyündədi,
Bilinmir nə vaxtda, hansı gündədi.
Tanrının qoruğunda, hörüyündədi,
Haraya uzanır çatı bilinməz.

Bəşərin özü də əsir günündə,
Qolunda qandal, boynunda kündə,
Yaranan gündən dözür sürgündə,
Qalxışı bilinməz, yatı bilinməz.

Dünyanın ən məzlum yetimi bizik,
Milləti dağınıq, ürəyi əzik,
Bərdə bazarında satlıq kənizik,
Alışı bilinməz, satı bilinməz.

Qismət də talelə durub üz-üzə
Birində qalxandı, birində nizə.
Gözlərdə qarışıb gecə-gündüzə
Kim-kimə doy gəlib,  batı bilinməz.

Səməndər, həsrətin bircə qarışdı,
Bir yanım bahardı, bir yanım qışdı.
Araz-Araz deyil başa qalxışdı
Ürəkdə yarası, çatı bilinməz.

**MƏNİM**

Hey gəzirik itən günü,
O dağ sənin, bu dağ mənim.
Zaman etdi ötən günü
Xatirəmdə budağ mənim.

Görən fikri lap qətimi?
Kəsdi tamam taqətimi.
Yoxsa onun taqətimi
Sinəmdəki bu dağ mənim?

Qəlbimdə bir oda saldı
O sökmüşdü o da saldı.
Səməndəri oda saldı,
Külüm oldu bu dağ mənim.

# APARMA

Təbiətin hər kəsə öz bəxşişi var.
Sən ondan bahar um qar, qış aparma,
Hər eşqin qəlbini min yerə bölüb,
Yoluna, izinə naxış aparma.

Sevgini ortada yetim uşaq tək,
Buraxma, aparar fırtına, külək,
Dostlar gileylənib, düşmən güləcək,
Arxanca sellənən yağış aparma.

Səninlə tapmışdım səadətimi,
Küləyə buraxıb sədaqətimi.
Boynu bükük qoyub məhəbbətimi,
Yüklənib özünlə qarğış aparma.

Arzumuz boy atdı sıx meşə kimi,
Qoyma tez sola bənövşə kimi.
Həmişə qoy qalsın, həmişə kimi,
Bu gündən sabaha qaxış aparma.

Sən getsən, bil, ahım göyə dayanar,
Qələmim od tutub, dəftərim yanar.
Səməndər püskürsə lava yaranar
Heç yana atəşli axış aparma...

# VALLAH

Dayanıb durmusan güllə qol-boyun
Gül sənə yaraşır, sən gülə, Vallah
Min nəğmə söyləyim, min şeir qoşum,
Bil, azlıq eyləyər hüsnünə, Vallah.

Qıyğacı baxışın şimşəkdən betər
Baxmağa nə hünər nə ürək yetər.
Hər kəs o gözlərdə əriyib itər
Heç əl də yetişməz külünə, Vallah.

Qədəmin altında məst olub yollar,
Diləyir daima sənə uğurlar,
Kəmərə bənzəyib ay da füsunkar,
Elə hey can atır belinə, Vallah.

Əsil aşiq olub təbiət sənə.
Günəş nuru ilə qonub sinənə.
Yüz cür nəvaziş göstərib yenə,
Meh də sığal çəkir telinə, Vallah.

Baxdıqca hüsnünə göz ləzzət alır,
Camalın vəsfinə söz ləzzət alır.
Səməndər yandıqca köz ləzzət alır,
Əli yetməsə də əlinə, Vallah.

# ÜRƏKDƏ

Yetmiş ili yelə verib uçurduq
Hər bir ilin get-gəli var ürəkdə.
Qasırğa tək gözdən itdi görünməz
Dəniz kimi hikkəli var ürəkdə.

Coşub-daşan dalğaların üstəyik,
Yelkən açmış qayğılara istəyik,
Şükür, hələ görkəmdəyik, üzdəyik
Necə ömrün heykəli var ürəkdə.

İllər ötür üstümüzdən bir-bə-bir,
Biri uşaq, biri cavan, biri pir.
Bir-birini ömrə, günə dövr edir,
Hər dövrdən zikkəli var ürəkdə.

Necə olay arxasınca daş atdıq,
Neçəsini qəlbimizdə yaşatdıq.
Neçəsini boş quyuya boşaltdıq,
Neçə-neçə övkəli var ürəkdə.

Kimsi kədər-qəm gətirdi ələndik,
Kimsi sevinc-dəm gətirdi bələndik.
Ümüd ilə hansı gəldi güvəndik,
Çözülməyən əngəli var ürəkdə.

Bahar gəlib qış dönən tək itdilər,
Xatirələr bağçasında bitdilər.
Quzu kimi otladılar getdilər
Yetmiş böyük dağ kəli var ürəkdə.

Yayı qalıb ürəyimdə qışladı,
Qışı gəlib qanlı cəngə boşladı.
Səməndəri yerə salıb xışladı,
Əldə qılınc vurgəli var ürəkdə.

## TƏRƏF

Biz də təbiətin bir parçasıyıq,
Dayanıb durmuşuq üz-üzə tərəf
Burda yollarımız ayrılır daha,
Mən qışa üz tutdum, qış yaza tərəf.

Tükənib tez bitdi ömrün baharı,
Dövr etdi sinəmdə qəmi, qübarı.
Dolayıb belimə ötən yolları,
Üz tutdum şaxtaya, ayaza tərəf.

O qaynar çağımdan aralanmamış,
Gənclik ləzzətindən yararlanmamış,
Mənə sığal verən saç canı yanmış,
Qaçdı şəvəlikdən bayaza tərəf.

## GÜDAZA TƏRƏF

Ürək arzularla hey dolub-daşır,
Günəşdən nur alıb ayla dolaşır.
Ürək ümidlənib dağa dırmaşır,
Ömürsə sürünür güdaza tərəf.

Ayları illəri teyləyir günlər,
Çapırdır atını əlində xəncər,
Önündə çarəsiz qaçır Səməndər,
“Qocalıq” adlanan bir naza tərəf.

## BİLMƏDİM

Səmalarda göyərçin tək uçurdun,
Hansı qırğı çaldı səni, bilmədim.
Ulduzları özünə tən sanırdın,
Necə vurub saldı səni, bilmədim.

Buludları don biçmişdin əyninə,
Ayı, günü almaz idin eyninə.
Qəfil düşdün o qansızın əlinə,
Qamarlayıb aldı səni, bilmədim.

Mən yerdəydim, sən də göydə, a dilbər.
Heyran idi süzüşünə Səməndər.
Qamçı kimi şaqqıldayan şimşəklər
İlan olub çaldı səni, bilmədim.
İlan olub çaldı səni, bilmədim.

## DAVASIDI

Həyatın əzəldən əsas qayəsi
Əbədi xeyirlə şər davasıdı.
Durmadan qovlayır gecə, gündüzü,
Qovğası zəhmətlə tər davasıdı.

Binadan yaranıb cəbhələr belə,
Bir yanda mərdlikdi, bir yanda hiylə,
Hiyləylə uduzur aslan tülküyə,
İnam davasıdı, çər davasıdı.

Qanmazlar qanana meydan oxuyur,
Nadanlar alimə corab toxuyur.
Hara baxırsan savaş qoxuyur,
Ayın üzərində yer davasıdı.

Qayada qartaldı, dərədə kürzə.
Meydanda Koroğlu, qarşıda Həmzə,
Xəyanət qeyrətlə durub üz-üzə.
Hər yanda namərdlə, ər davasıdı.

Bərk qaçan atların tez düşər nalı,
Var-dövlər düzəltmir əyilən halı.
Səməndər, bəslərəm daim xəyalı.
Sərvət davasıdı, zər davasıdı.

## MƏNİ

Ya Rəbb yorub söz atımı,
Yarı yolda qoyma məni.
Nə edirsən qəfil eylə
Gıcıtkan tək oyma məni.

Bir meh eylə əsim gedim
Çıxartmayım səsim gedim.
Lap qırx yaş da bəsim gedim
Etmə qıyma-qıyma məni.

Dua etdim səhər-axşam
Ürəyimdə min ehtişam.
Dərgahına əl açmışam
Sındır, ancaq əymə məni.

Üz tuturam hər an sənə,
Baş əyirəm dönə-dönə.
Vətənimi abad eylə
Yad diliylə söymə məni.

Səməndərəm, öyülmədim,
Yad önündə əyilmədim.
Hər zorluğa döyülmədim.
Öldür, amma əymə məni.

*Hərbi hospital. 1995.*

## YERİNDƏ

Min dona girir, sifətə girir
Dayanmır nə dolu, nə boş yerində.
Yersiz zərbələrə tab gətirməyir
Qaya qayalıqda, daş daş yerində.

Bal-bəhməz də deyil payı zamanın,
Bəzən tərsə təpir yayı kamanın,
Elə bükülür ki, dizi gümanın
Düz dura bilməyir baş baş yerində.

Bulud gərdək qurub ay qucaqlayır,
Günəş qəzəbindən alışıb yanır,
Əqlini itirib dünya fırlanır,
Dayana bilməyir göz, qaş yerində.

Heç kəsin qisməti düzünə düşmür,
Çoxu axtarsa da izinə düşmür,
Tapsa da bir tikə özünə düşmür
Dönüb zəhər yeyir hey aş yerinə.

Səməndər, dərələr dərdi-sərindən.
Min yerə ayrılır dağlar belindən
Həyatda nadürüst, naqiş əlindən
Qərənfil ağlayır savaş yerində.

## VIZ HA VIZ

Çiçək verər bəhrəsini, barını.
Arı yığar sağa-sola vız ha vız.
Dağlar yaza tohvə edər qarını,
Yaz arana yola salar vız ha vız.

Göylə yerin məsafəsi bir qarış
Pərcimləyir bir-birinə qar, yağış
Səhraya heç damla yağış yağmamış
Tufan qopur azca qala vız ha vız.

Bayquş ötür binaların şərində
Bülbül ötür dərələrin dibində
Qanı sorub kef eyləyir civimdə
Saçlarını yellədərək vız ha vız.

Pələng gəzir boynu bükük, dili lal
Ac yalavac, gözlərində min məlal.
Tülkü, çaqqal ov ovlayır dal ba dal,
Həzm eyləyir girib kola vız ha vız.

Kim girirsə bu həyatın dərsinə
Şillə yeyir, səmitinə, tərsinə
Çoxu gəldi Səməndərin səsinə,
Halın görün düşdü yola vız ha vız.

## GEDİM

Xeyirlə, şər ilə qurulub Vətən,
Xeyrində, şərində görünüm gedim.
Üstümdə dağ boyda haqqı-sayı var,
Taqətim olmasa sürünüm gedim.

Bir gəzən qurğuyam, memarım Fələk,
Çiynimdə baş qoyub, köksümdə ürək
Bir əyər əysiyim qalmasın gərək,
Qalıbsa bir yolluq görülüm gedim.

Dünyanın nəyi var özümdən keçir,
Yolları dolanıb gözümdən keçir,
Nə dərdi-səri var dözümdən keçir,
İstəyir önünə sarılım gedim.

Dağ gəzmək istəsən dağ da sinəmdə,
Bağça da sinəmdə, bağ da sinəmdə,
Bostanda sinəmdə, tağ da sinəmdə,
Bostancı gəlsin ki, dərilim gedim.

Səməndər, bir arzu keçir ürəkdən,
Tam bütövlüyünə qovuşsun Vətən.
Ölsəm də bir ovuc torpaq olum mən,
Bu Vətən mülkünə hörülüm, gedim.

## YAĞIŞDAN SONRA...

Yağışdan sonra göy qurşağıyıq,
Nəm çəkilən kimi ötüb gedirik,
Çəkilib göylərə hələ bir anlıq
Bizi sevənlərə əl də edirik.

Rəngimiz bir müddət gözlərdə qalar,
Xətrimiz qəlbləri silkələr bir az,
Çoxlu axşam düşər, sabah açılar,
Zamanın təkəri yerində durmaz.

Yenə yaz gələcək yağış yağacaq,
Yenə göy qurşağı düşəcək göyə.
Kimlərsə sevinclə durub baxacaq,
Bax o göy qurşağı bizimdir deyə.

*25.01.2024. Tovuz. Yanıxpəyə.*

## ÇAL

Azar-biraz ayağına səpilsin,
Al çalğını elə səpik-səpik çal.
Ya da yığıb bir küpəyə təpisdir,
Tıxac kimi ağzına tez qəpik çal.

Pünhan axan göz yaşımı silirəm,
Nəyim varsa dosta qurban edərəm,
Dilin yoxdu, sağ ol, üçün bilirəm,
Heç olmasa hərdən, hərdən cəpik çal!

Heş bir zaman yaxşılığı itirmə,
Ürəyində kin-kudurət bitirmə,
Külək olub qara rüzgar gətirmə,
Döndər getsin arxasınca təpik çal!

Səməndər tək baş əy halal loxmaya,
Saray zənn et yaşadığın daxmaya,
Çalış qoyma ayna-qapı laxlaya,
Köhnəldikcə dörd yanına şəpik çal.

*26.02.2024. Tovuz. Qovlar.*

## DEYİN AĞLAMASIN YETİM NEYLƏSİN...

Virandı, bərbaddı yetim dünyası,
Evinin sökülüb ayna, qapısı,
Halına bir yanan yoxdu, qadası,
Kimsə duyanmayır ahın-naləsin,
Deyin, ağlamasın yetim neyləsin?

Axtarır əysiyi, gərəyi çoxdu,
Sevinib gülməyə ürəyi yoxdu.
Ağzında dad verən çörəyi yoxdu.
Tutub zəncirləyir içində səsin,
Deyin, ağlamasın yetim neyləsin?

Analı günləri zindana düşüb,
Ata məhəbbəti dilində bişib,
Qəm-kədər içində donub, büzüşüb,
Hələ görənməyir kimin, kimsəsin,
Deyin, ağlamasın yetim neyləsin?

Qorxulu nağıllar həqiqət olub,
Yeyib ümidini kimsə it olub,
Gözündə ay batıb, ya günəş sönüb,
Axıdıb sellərdə gözün giləsin,
Deyin, ağlamasın yetim neyləsin?

Gözləri saplanıb, yola dikilib,
Qəlbində kədərdən qala tikilib,
Yetimlik ömrünə bəla tikilib,
Gözləyir bibisi, xalası gəlsin,
Deyin ağlamasın yetim neyləsin?

Səməndər, yetimə dərdi bələndi,
Sevinc göz açmamış dərdə bələndi,
Yetimlik göz yaşı dərdi böləndi,
Bölüb kədəriylə yeyir tikəsin.
Gözləri kor olub daş olan kəsin,
Deyin, ağlamasın yetim neyləsin?

## SƏMƏNDƏR HƏSRƏTLƏ YOL VƏRƏQLƏYİR

Ay yatanlar, yuxudan tez ayılın
Bulud yorğan salıb, gün qıraqlayır.
Dağlar qarılar tək baş-başa verib.
Töküb önlərinə yun daraqlayır.

Aranda torpağın rəngi bozarıb,
Su deyə od tutub, alnı qızarıb,
Buludlar çaylarla qol-boyun olub,
Ummana üz tutub göl soraqlayır.

İstilər əlindən nəfəs daralıb,
Şəhərdən dağlara gedən çoxalıb.
Ürəyim dostlarçün yaman yuxalıb,
Səməndər həsrətlə yol vərəqləyir.

## DOLANAQ

Hey günlərə gül bəzəsin səhərlər,
Ətirini duya-duya dolanın,
Səhər çıxın ayaqyalın yamaca,
Dizə qədər batıb suya dolanın.

Şiş qayalar, boz güneyin taxtıdı,
Quzqulağın qulançarın vaxtıdı.
Tapıb yeyər hər kiminki bəxtidi.
Hərdən düşüb haya-huya dolanaq.

Ay Səməndər, gül-çiçəkli quzeylər,
Gül bülbülə, işvə satıb naz eylər,
Tamaşası ruhumuzu saz eylər,
Tələsməyin uya-uya dolanaq.

## MÜBARƏK

İsti nəfəsindən buzlar əridi,
Ay od çərşənbəsi, odun mübarək!
Dünya cana gəldi, taqətə gəldi,
Canlara hərarət odun mübarək!

Günəşdən güc alıb torpağa verdin,
Lərdüştən Zevsə qüdrət yetirdin,
Prometeyi dartaraq Qafa gətirdin,
Yaratdın xilasgar qadın mübarək.

Dastanlar yarandı od nəfəsinlə,
Hər biri min durrlu su həvəsinlə.
Yetirir arxanca duyub səsinlə
Dünyanı titrədən "bad"ın mübarək.

Birləşib yaratdız bu aləmi siz
Kainat olmazdı yoxsa da sizsiz.
Hər şeyi "xak" edib səssiz, səmirsiz,
Yaddaşın mübarək, yadın mübarək.

Səməndər, dörd unsuz var canımızda,
Onsuz heç olmazdı bu dünyamız da,
Onlara borcluyuq hər anımızda,
Daddığın bu tamın, dadın mübarək.

## QALXASIZ

Sabahınız xeyir olsun, a dostlar,
Hər bir zaman xoş güzara qalxasız.
Ac qarına ləzzət verər meyvələr,
Gün dəyməmiş ilk nübara qalxasız.

Cəmi yatan qoy yuxudan ayılsın,
Tez oyanan zirəklərdən sayılsın,
Bu şad xəbər qoy dostlara yayılsın,
Bazar günü əmirvara qalxasız.

"Həsən nənə, Həsən baba qoşadı,
Xoşbulaq yaylağı xoş tamaşadı"
Yanbayana Qoşqar ilə yaşadı.
Səməndərlə o dağlara qalxasız.

# SƏHƏRLƏR

Gecə yorğanına bürünüb gedər,
Dan yeri günaydın deyər səhərlər.
Gəlinlik donunu geyib üfüqlər.
Təmiz məhəbbətlə gülər səhərlər.

Atıb yapıncını mürgülü dağlar,
Ədəblə, ərkanla günü salamlar.
Hər yandan birbəbir hal əhval tutar,
Kefini soruşub bilər səhərlər.

Sis-duman yamaca ağ örpək salar,
Qartal ənginlikdən nəmərlər alar,
Sıqırçın budaqda fişqırıq çalar,
Şahin sübh ovunu eylər səhərlər.

Göyün də torpaqla öz sevgisi var,
Bunu tez anlayar eşqi duyanlar.
Daima eşqini eyləyər aşkar,
Lalətək çəmənə ələr səhərlər.

Buludlar qucayar dağın belini,
Bülbül də qoxlayar gülün telini,
Səməndər duayla açıb dilini,
Dostlara xoşbəxtlik dilər səhərlər.

## GÖRÜNMÜR

Bu dünya xainlə, satqınla dolu,
Biri görünsə də, yüzü görünmür.
Aləmi göz edib qəpiyə satır,
Bu alqı-satqıda izi görünmür.

Fırtına törədir, yer silkələyir,
Gizlində şər doğur, iblis bələyir,
Aşgarda elə bil quzu mələyir,
Səsi xoş gəlsə də üzü görünmür.

Əzəldən anadan oraş olublar,
Neronla, zöhkakla sirdaş olublar,
İnsanlıq üstündə bir daş olublar;
Daşları baş yarır özü görünmür.

Az qala Tanrıya divan görürlər,
Xoşları gələni taxta qoyublar.
Şeytanı ehtiyat vaxta qoyublar
Fitfası, fərmanı sözü görünmür.

Səməndər, bu bəşər çöküb, talanır,
Nəhənglər qudurub, qana yalanır
Dünyanın belində ocaq qalanır
Külü yer qarsıdır, közü bilinmir.

## ...NƏVƏLƏRLƏ BƏZƏNSİN

Sabahınız xeyir olsun, a dostlar,
Bahar kimi çiçək açsın arzular.
Xoş duyasız hər səhərin ətrini
Pardaqlansın könlünüzdə hər nə var.

Hey qapınız müjdələrə açılsın,
Üstünüzə haqqın nuru saçılsın,
Xoşbəxt günlər ömrünüzə yar olsun,
Yaman günlər ömrünüzdən qaçılsın.

Bəxt eviniz toy-düyünə bələnsin,
Sevinc, şadlıq yağış kimi ələnsin,
Bəzək vursun ömrə-günə fidanlar,
Qəlb mülkünüz nəvələrlə bəzənsin.

## YAN, A BÜLBÜL

Üz döndərdin yana, bülbül.
Uçdun yandan-yana, bülbül,
Bax, gül üstə xar əylənib
İndi alış, yan, a bülbül.

Tale səni xar eylədi
Nə utandı, ar eylədi
Nisgil əkib, qəm şumladın,
Hamsı gəlib bar eylədi.

Gülün üzü dönük imiş,
Eşqi tamam sönük imiş,
Nə umursan beləsindən,
Qəlbi daşdan enik imiş.

## SƏHƏRLƏR

Alıb getdi ömrümüzün şirəsin,
Arı kimi gənclik adlı səhərlər.
Var idimi bu dünyada görəsən
Belə gözəl, belə dadlı səhərlər.

Səhər-səhər pəncərədən baxardı,
Sanki gün tək buludlardan çıxardı,
Ürəyimi yandırardı, yaxardı,
Hara getdi elə odlu səhərlər.

Yarı bütün sevinc idi, dəm idi,
Yarı tamam kədər idi, qəm idi,
Əzabı da, sevinci də kəm idi,
Qəmli ötən, ötən şadlı səhərlər.

Günlərimi pillə-pillə ucaltdı,
Səməndəri ildən-ilə qocaltdı,
Yol gedirik, mən piyada, o atlı,
Çapıb gedir, yel qanadlı səhərlər.

## ELƏ

Zalım əcəl, kəsib durma yanımı,
Dayanmısan durub qəstə çox elə,
Namərd kimi yıxıb yerə sürümə,
Kişi kimi ayaq üstə yox elə.

Bütün bəşər cana doyub səsindən,
Yaxasını qurtarammır əlindən,
Qoşun yığıb qarışqalar elindən,
Aç ovunu, aç gözünü tox elə.

Ağrıların əzab verir canıma
İşgəncəylə məni belə sınama,
Bu zəhəri qram-qram qanıma
Yeridirsən, heç olmasa çox elə.

İstəmirdim bir çöp kimi atılım,
İstəyirdim palıd kimi qatılım,
Vətənimin ocağ ağına çatılım
Səməndəri belə yandır, yox elə.

## TİTRƏMƏSİN

Yamanlıq partlasın yamanlığından,
Bədnəzər gözündən əl titrəməsin.
Dostların ucalsın bəxti, taleyi,
Ayağı altında yer titrəməsin.

Hər kəs zəhmətiylə ucalsın göyə,
Bar versin əlini atsa hər nəyə.
Halal çörək üçün halal əməyə
Alnından tökülən tər titrəməsin.

Heç zaman olmasın əl ələ möhtac,
Qonşu-qonşusuna, el elə möhtac,
Olsa da qoy olsun sel selə möhtac,
Coşub kükrəyəndə şər titrəməsin.

İnsan bolca dəndi, həyat dəyirman,
Unu kəpəyilə üyüdür hər an.
Zaman ki ayırır unu urvandan,
Çaxçax baş sındırıb, pər titrəməsin.

Tale oyununda zərə möhtacıq
Bir ümid umarıq ondan azacıq,
Səməndər, arzular qalıb yarımçıq.
Hünər meydanında nər titrəməsin.

*05.03.1995. Yanıxpəyə.*

“Sən bəşər evinin unu, urvası
Ələyi, tabağı, sacısan manat
Xaçpərəst xaçısan, büdpərəst butu,
Müsəlman məkkəsi, hacısan manat”.

***Əli Qurbanov (Dostancı).***

*Bir səhər tələbə yoldaşım Qəhraman Musayev Əli Qurbanovdan bir bənd şeiri mesajla mənə göndərdi. Ona cavab olaraq mən də bu şeiri qələmə aldım:*

**Deyirsən**

A Qəhraman, yuxunumu qatmısan
Səhər, səhər nə manatdı deyirsən?
Bu dünyanın əsas odur sütunu
Onsuz dünya, amanatdı, deyirsən.

Pulun yoxsa yaşamağı heçə say,
Boş dolanıb ötən günü gecə say,
Hünərin var gündüz qazan, gecə say,
Hər kilidə pul anatdı, deyirsən.

Kor gözünə zərrə olan bir işıq,
Xəsrə üçün dərman olar bir qaşıq,
Lüt bədənə ziynət verən yaraşıq,
Ləl bədənə çüt qanaddı deyirsən.

Dara düşən hey çağırır, ya Əli!
Mizandadır hər adamın əməli,
Cibdən sıxır ürəkləri dərd Əli
Var dövlətə kainatdı deyirsən?

Cibin boşsa qohum-qardaş yan keçər,
Qəlb titrəyər gözlərindən qan keçər,
Varın olsa hamı sənə can keçər
Səməndərə bu həyatdı deyirsən?

## BİLMİRƏM

Taleyin verdiyi dərdləri bir-bir
Vurmuşam şələyə çəkə bilmirəm.
Qəm kədər içində min saray qurub,
Bir şadlıq küməsi tikə bilmirəm.

Anadan olandan qəm selindəyəm,
Haqqı görmürəm ki, dərdimi deyəm,
Necə yaratdın ki, mən bu gündəyəm,
Hördüyün torları sökə bilmirəm.

Bir dən də olmadım heç torpağında,
Quşlar eşələyə ayaqlarında,
Yamanca qalmışam toz dumanında,
Tufanlar əlindən çökə bilmirəm.

Beynimdən min sorğu-sual ələnir:
-Bu belə doğulub harda bələnir?
Kölgəmə çevrilib arxamca gəlir
Önundən bir yana səkə bilmirəm.

Səməndər, zamanın bir budağıyıq,
Azarla, bəzarla can ortağıyıq
Nə inkar eyləyib nə danmalıyıq
Mən ondan çox güclü, yekə bilmirəm.

*26.08.2024. Tovuz. Qovlar.*

## SƏNSİZ

Tale saçlarına hörülmüşük biz,
Tökülsə dərd edər hər çağım sənsiz.
Qəlbimdə tükənməz od mənbəyisən
Kənarda od tutmaz ocağım sənsiz.

"Özün bir aləmsən, sözün bir aləm"
Yer edib köksümdə bu iki aləm.
Həm mənim baş tacım, həm mənim ailəm
Keçməsin aləmdə növrağım sənsiz.

Həsrətdə sıxılsam özünü yetir,
Mənə qüvvət gətir, mənə güc gətir,
Gəlsən qış da mənə bahar kimidir,
Yoxsa buz bağlayar qucağım sənsiz.

Nəfəsin cismimə can verir, canım,
Səninlə gül açır evim, eyvanım,
Eşqinlə qurulub yurdum, məkanım
Kif tutub, tor bağlar bucağım sənsiz.

Göydəsən, yerdəsən ana bilmirəm
Ya daş parçasıyam, ya Səməndərəm,
Hər xoş qədəminə qurban kəsərəm
Qəlbimə saplanar bıçağım sənsiz.

*20.02.2018. Voronej.*

## GÜLÜM

Gəl açaq şən səhəri,
Sən gül ki, məndə gülüm.
Bilirəm, göylərdəsən,
Yerdəyəm mən də, gülüm.

Seyrə çıx ay üzünü,
Qoy görüm ay üzünü,
Gizlətmə ay üzünü,
Əksin var məndə gülüm.

Qəlbim sənə alaçıq,
İstəyirsən ala cıq
Səməndəri al açıq
Mən ölüm, mən də gülüm.

## GƏL

Dünya elə dünya kimi dünyadı.
Nöqtə, vergül heç əlini vurma gəl.
Çərxi nədir, çənbəri nə, oxu nə?
Fikirləşib çox özünü yorma gəl.

Kim baş qatdı bu dünyanın işinə,
Kabab olub keçdi odlu şişinə.
Lum-lum edib çəkdi qanlı dişinə.
Çəkil yana, ortalıqda durma gəl.

Nə satlıqdı, nə tapılmır olanı,
Bir köhləndi, yerdi, göydü palanı
Qaynar teşti varlığında yalanı,
Səməndərdən əlavə söz sorma gəl...

## QARDAŞ

Toplansa bir yerə səs alətləri,
Saz onun sultanı, xanıdı, qardaş.
Cismə ruh gətirər, ruha can verər,
Hər pərdə bir ruhun canıdı, qardaş!

Bizə o qədimdən, binadan gəlib,
Müqəddəs dədəmiz Qorquddan gəlib,
Ellər qərib düşüb, binadan gəlib
O söz dünyasının xanıdı qardaş.

Min hikmət gizlənib hər pərdəsində,
Od-alov püşgürür cəngi səsində,
Yandırıb kül edib Səməndəri də
Yenidən diriltmə anıdı qardaş.

*29.08.2024. Qovlar.*

## A MEHRİ

Təbiət heç zaman qışsız keçinməz
Qəlbində gül açsın yazın, a Mehri.
Qələm, dəftər gəzsin bağça, bağında
Aləmə yayılsin yazın, a Mehri.

Oynat misralarda söz qəmzəsini,
Hər nazlı kəlmənin öz qəmzəsini.
Ruhlara yol salan göz qəmzəsini
Bəzəsin aləmdə nazın, a Mehri.

Səməndər sözünü deyər dost yana,
Sözünlə, sazınla gəl gir meydana,
Qoy səsin yayılsın Azərbaycana,
Susmasın heç zaman sazın, a Mehri.

# GÖZƏLDİ

Həyatın əzəldən öz qanunu var
Azca var-dövləti olsa gözəldi.
Alov qanunu var, köz qanunu var,
Alışmaq xisləti olsa gözəldi.

Ocağın boynunu köz oxşayırsa,
Qəlbə sığal çəkib, söz oxşayırsa,
İgidin görkəmi göz oxşayırsa,
Cismində qeyrəti olsa gözəldi.

Qadın-qadın olsa, qadın yerində,
Boş gəzib dolanmaz yerin dibində,
Ay təki üzsə də göyün üzündə
Gün təki isməti olsa gözəldi.

Oğul, qız fərqi yox gözündə elin
Vüqarlı oğulla, qeyrətli gəlin.
Gözündə ucalsa bütün bəşərin
Allahdan qisməti olsa gözəldi.

Qəlbində min arzu var Səməndərin,
Taleyi gül açsın sevən kəslərin.
Həmişə üstündə bütün gənclərin,
Tanrı nəzarəti olsa gözəldi.

*27.08.2024. Tovuz.*

## GÖZÜNDƏ

Tərəziyə qoyub zaman,
Daş fırlanır an gözündə.
Kimlərə xoş gözlə baxır,
Kimlərəsə yan gözündə.

Haqqın-haqqa dəyəri yox,
Əyilənə dirəyi yox,
Aşağıya çörəyi yox,
Yuxarıya görəyi yox
Gizlənib şeytan gözündə.

Əli yalın gələn bizik,
Bu dünyanı bölən bizik,
Öldürən biz, ölən bizik,
Hər yan tamam əzik-büzük,
Dərd üzür dərman gözündə.

Nə arzuyuq, nə istəyik,
Nə umuda, nə küsdəyik?
Dəyirmanlıq dən üstəyik,
Biz ki, bu xislətdəyik
Qalaq dəyirman gözündə.

Ay Səməndər, danış indi
Bu görünməz əl kimindi?
Verən birdi, alan mindi
Zaman elə min ha mindi,
Bir atıq, zaman gözündə.

*02.08.2024. Tovuz. Qovlar.*

## YUXARI

Bu nizamı qoyan qoyub
Kök aşağı, dən yuxarı
Seşə durub hökm eyləyir
Qılpını dəndən yuxarı.

Dün yamızın ahil cağı,
Neynir bu zalım usağı.
Alim düşür ən aşağı,
Nadan çıxır ən yuxarı.

Bir yanda qış, bir yanda yaz
Eyni anda qərar tutmaz,
Yatan ruhu dəm oyatmaz
Bir qəm var dəmdən yuxarı.

Xəzinələr yer altında,
Toz fırlandı göy altında,
İblis mələk xalatında
Qalxıb Fələkdən yuxarı.

Gün dayanır, yer fırlanır,
Xeyir yatır, şər fırlanır,
Dünya şərə çox inanır,
Çəkib qoyur tən yuxarı.

Yuxarının daşı ağır,
Altındadır hey çal-çağır,
Səməndəri daşa çaxır,
Gəl can atma sən yuxarı.

*02.08.2024. Tovuz. Qovlar.*

## AXTARMA

Könül, düşüb od-alovda
Ətir gəzib, qox axtarma.
Misə qatıl ləl kövhəri
Gecə qalxıb şox axtarma.

Günəş batıb şoxum getdi,
Azım qalıb, çoxum getdi
Dur hazırlaş, get ha getdi,
Ac süfrədə tox axtarma.

Gözüm gözündən uzaqdı,
Yollar tamam qar sazaqdı
Ömrün, günün bu qış vaxtı,
Tar altında ox axtarma.

Gövdə düşük, qol dükənib,
Öndə yoxuş, yol dükənib.
Yola çıxma qəm yüklənib,
Yox içində, var axtarma.

Bu yollar daşla üzlənib,
Daşlar böyüyüb, süslənib,
Səməndər harda gizlənib?
Tapammasan çox axtarma.

*04.08.2024. Qovlar. Tovuz.*

## SƏN DƏ GƏL

Söz meydanı deyənlərçün açıqdı,
Deyəmməyən, tamaşaya sən də gəl.
Ləzzəti var hər kəlmənin, hər sözün,
Dadmaq üçün bu masaya sən də gəl.

Müəmmadı söz bucağı, söz ucu,
Hər kəlmənin öz ilgəyi, öz ucu,
Ariflər tək baxan kimi göz ucu,
Hər açılan müəmmaya sən də gəl.

Görürsən ki, hər kəs atın oynadır,
Bacarmırsan, sən atını dayandır.
Ay Səməndər, həyat özü aynadır
Baxmaq üçün bu aynaya sən də gəl.

*07.08.2024. Tovuz. Yanıxpəyə.*

## BACILAR

Sabahınız xeyir olsun hər zaman,
Şirin dilli, şəkər sözlü bacılar.
Gözləriniz şər görməsin heç zaman,
Yanar qəlbli, nurlu gözlü bacılar.

Neçə igid oğullara anasız,
Sevinc ilə, toy-düyünlə yanasız.
Qoy keçməsin məclisimiz sonasız,
Gün keçirin sözlü, sazlı bacılar.

Qanad açsın gündən-günə arzular,
Möhkəm dursun arxanızda cavanlar.
Səməndərin hələ xeyli sözü var,
Şən dinləyin, gülər üzlü bacılar.

## NƏDİR GECƏ?

Şərin şər örtüyündən,
Xeyrin zər örtüyündən,
Eşqin tər örtüyündən,
Sevişib gedir gecə.
Bilən yox, nədir gecə?

Neçə igid qəstinə,
Qatı sirlər üstünə.
Neçə qatil dəstinə,
Açıbdır çətir gecə.
Bilən yox, nədir gecə?

Qara don dərviş sayaq,
Sübhədək qalır oyaq.
Kimə dağ, kimə dayaq,
Kiməsə qədir gecə,
Bilən yox, nədir gecə?

Qaranlıq kisəsində,
Buz kimi nəfəsində,
Ayı ay kündəsində,
Eyləyir fətir gecə.
Bilən yox, nədir gecə?

Ulduzu dən eyləyir,
Qəlblərə tən eyləyir,
Kimi bədbəxt qüssəli,
Kimisə şən eyləyir,
Yağdırır ətir gecə
Bilən yox, nədir gecə?

*07.08.2024. Tovuz. Qovlar.*

## MÜBARƏK

*Birinci sinifdə oxuyan nəvəm Duyğu Nurlanın xahişi ilə Son zəngə XI sinif məzunlarını təbrik etməsi üçün qələmə almışam.*

"On birlərin" son zəngidi bax bu gün.
Uğur yolu üzünüzə açılsın,
Ay məzunlar, son zənginiz mübarək!
Uşaqlığın son anıdı toy, düyün.
Yolunuza kamal nuru saçılsın,
Ay məzunlar, son zənginiz mübarək!

İki Fidan bir sinifdə oxuyur,
Hər ikisi gül ətiri qoxuyur.
Arzuları min bir naxış toxuyur.
Bu uğurlu yol, iziniz mübarək.
Ay məzunlar, son zənginiz mübarək!

Aysu mənim gözəl-göyçək bir bacım.
Kaş olardı uğurları baş tacım.
Mən də ondan hey ürəklə söz açım.
Xoş sədanız, xoş sözünüz mübarək,
Ay məzunlar, son zənginiz mübarək!

Qənizəsə göydə aya bənzəsin
Obaları, oymağları bəzəsin,
Nur çələngi zirvələrə yüksəlsin,
Qənirlənən ay üzünüz mübarək,
Ay məzunlar, son zənginiz mübarək!

## MÜBARƏK

Üzə gülsün hər cüməniz mübarək.
Əziz dostlar sabahınız xeyirə.
Qoy açılsın xoş səmanız mübarək.
Gülə-gülə şad keçirin bu günü,
Üzə gülsün hər cüməniz mübarək.

Dövrənizdə kimlər varsa nə varsa,
Kim haraya səfər etsə, ya varsa,
Qəlb evini sevinc ilə suvarsa,
Daim olsun o komanız mübərək,
Üzə gülən hər cüməniz mübarək.

Çox yığılın siz baş-başa, a dostlar,
Birliklərdə ömrü boyu xeyir var
Bağlamısız Səməndərlə düz ilqar,
Bu ürəkdə lap cümləniz mübarək.
Üzə gülən hər cüməniz mübarək.

## M.RƏSULZADƏYƏ

Sən peyğəmbər nəslinin zərrəsi
Düz amala, düz ilqara yaşadın.
Məhəmmədəmin Rəsulzadə adını
Qaldıraraq buludlara yaşadın.

Ömrün keçdi sərt tufanlar içində,
Haqsız qanlı çarpışmalar içində,
Tanrı səni bəlkə onun üçün də
Ön yaratdı, öndərlərə yaşadın.

Vətən eşqi kök salmışdı canında
Vulkan olub tez püskürdün anında,
Azadlığa qurban getdi canın da,
Həkk olunub yaddaşlara yaşadın.

Qanan dedi – zirvə sənə, dağ sənə,
Nadan çəkdi dönə-dönə dağ sənə,
Bu dağları torpaq edib sinənə,
Zirvə kimi dura-dura yaşadın.

Haqdan gələn çıraq idin, nur idin,
Dayağıydın yüzminlərələ igidin.
Millət üçün min bir əzab çəkdiyin
Ali məslək qura-qura yaşadın.

Tarələrlə cəhalətin əlindən,
Parçalanıb inləyirdi bu Vətən.
Od götürüb cəhənnəmin dibindən.
Zülmətləri yara-yara yaşadın.

Kim gətirir göz önünə o anı,
Azərbaycan Cumhuriyyət Başqanı,
İlk sən oldun, silkələdin cahanı,
Hurriyyətə vara-vara yaşadın.

Uca tutdun Azərbaycan adını,
Dadızdırdın azadlığın dadını,
Əsarətin zəncirini, bağını,
Parçalayıb qıra-qıra yaşadın.

Sədəf kimi kövhərindən aldılar,
Azadlığı ürəyindən çaldılar,

Vətənindən səni uzaq saldılar.
El-obasız tək fuqara yaşadın.

Ulu öndər, zaman geri qayıtdı,
Yatanları silkələyib oyatdı.
Bayrağını sevənlərin ucaltdı.
Ömrü boyu bu qürura yaşadın.

Adın gəzir nəğmə kimi dillərdə
Ruhun parlaq ay, ulduzlu göylərdə.
İzin yoldu türklük olan hər yerdə,
Sirdaş olub ulduzlar da yaşadın.

## DANIŞAQ

*Tələbə yoldaşım şairə*
*Mehriban xanım Ələkbərovaya!*

A Mehriban, gözəl sözlər deyirsən
Əvvəl sirri o xudadan danışaq
Elə sirr var düyünlənib açılmır
Açılası xoş xəyaldan danışaq.

Şad keçirdi günlərimiz əzəllər,
Pəri kimi nazlanırdı gözəllər.
Gizli-gizli görüşərdik hər səhər
Yadda qalan bax,o haldan danışaq.

Qucaqlaşıb oturardıq sərində,
Dayanardıq aşiq, məşuq yerində,
Uçuşardıq məhəbbətin pərində,
Baldan şirin o xəyaldan danışaq.

Gözlər-gözə alov idi, od idi,
Qorxduğumuz yalnız təmiz ad idi,
Əyri yollar haram idi, yad idi,
Əhdi-peyman, düz ilqardan danışaq.

Açammadım heç bir kəsə dərdimi,
Bir gözəlin eşqi qapdı qəlbimi
Səməndəri hey əritdi şam kimi,
Ürəklərə düşən xaldan danışaq.

## XOŞ SƏHƏR ARZULARI

Xoş səhərlər yaradandan pay kimi
Coşub daşsın ömrümüzdə çay kimi
Çiçək açsın körpə fidan balalar.
Fərəh saçsın bəxtimizə may kimi.

Çatılmasın qəm kədərdən qaşınız
Zirvələnsin şad günlərlə başınız,
Pozulmasın toy düyünün karvanı
Xına yaxsın yaş əlinə yaşınız.

Kim deyir ki, əbədidir ömür, gün
Bir xəyaldır bu dünyada gördüyün,
Bəxş eləsin qoy ən gözəl sonluğu
Uca göydə Tanrı deyə sevdiyin.

Qopmasın tufanlar, əssə də külək
İmkan eyləsin bir söz söyləyək
O Ayla boylanan günlə nurlanan,
Dostlar, səhərimiz olsun mübarək.

Sevinc şadlıq nəğmə desin ucadan
Nəğmələrlə qaça gecə, uca dan.
Yaradanın gen açılsın kisəsi
Nur ələsin üstümüzə bacadan.

Heç zaman olmasın sizin, a dostlar
Yolunuz üstündə qara buludlar.
Səhər yuxulardan ayıltsın sizi,
Qəlbə ətir saçan şirin duyğular.

Nur saçsın hər zaman göyün hakimi,
Arzular çağlasın coşsun sel kimi.
Niskili kədəri yuyub aparsın,
Yaşasın könüldə sevgi aləmi.

Demirəm çox yatıb yuxudan şişək,
Əksinə tez duraq, deyək, gülüşək.
Yenicə dil açan nəvələr üçün
Bir azca at olub meydan gəzişək.

Zəmanə ağılı salıb dərinə
Nadanı qaldırıb göyun sərinə.
Xəzinə hərisi ilanlar belə
Qoymayır pulsuzu insan yerinə.

## GƏLSİN

Coşub çağla, ay Mehriban,
Al, meydana sazın gəlsin
Gileylənmə çətinlikdən
Yol aç işvə, nazın gəlsin.

Gənclik eşqin ləpələnsin,
Hər tərəfə səpələnsin.
Qəlbdə sevinc təpələnsin,
Dilə bal tək sözün gəlsin.

Qəza-qədər uzatsa əl
Tez sarsılıb üzülmə gəl.
Yıxılsan da tez qalx dikəl
Qoyma yerə dizin gəlsin.

Qış da keçər bala-bala,
Dur tonqal çat, ocaq qala.
Zimistanı salaq yola,
Gülə-gülə yazın gəlsin.

Bu torpağın bərəkəti
Üz döndərməz bizdən qəti.
Alış, isit şeyriyyəti,
Səməndərə közün gəlsin.

## OLSUN

Ay bacılar, ay qardaşlar,
Sabahınız xeyir olsun.
Qanad açsın çox arzular,
Kim nə dilək deyir, olsun.

Gününüz xoş, halınız şən,
Əhvalınız olsun gülşən.
Qismətlərə göydən düşən
Səmimiyyət mehir olsun.

Aran isti dağlar sərin
Sağ soludu Səməndərin.
Toy günündə sevənlərin
Məndən nəmər şeir olsun.

## OLUB

Dünya özü bir sipərdi, qaladı
Yaxşı, yaman bir birinə bağ olub.
Bərkiyərək qasırğalar önündə
Sıralanıb dağlar belə dağ olub.

Qala olmaz qalaqlasan çör-çöpü,
Dar məqamda oda verər çör-çöpü.
Namərd şişsə bil alınar tez köpu
Nə üz tutub nə köpüyü yaq olub.

Meydan daim ərlərindi əzəldən.
Arvad olmaz hər işvəli gözəldən.
Xam torpağa əkiləndə gözəl dən,
Səməndərin əhvalı da çağ olub.

## BU GECƏ YUXUDA CƏNNƏTİ GÖRDÜM

Bu gecə yuxuda cənnəti gördüm,
Alov püsgürürdü cəhənnəm kimi.
Pərilər var idi qaçqınlar sayaq
Yollarda qalmışdı düşüb örpəyi.
Hurilər var idi yalınca ayaq
Əzib mum edirdi daşı, kəsəyi.
Qayalar üstüylə qaçır tələsik
Ətrafda boylanan kimlər var idi...
Ayaqları qırıq, qolları kəsik
Daş heykələ dönmüş topallar idi.

Mən elə alışdım, mən elə yandım,
Qışqırtım oyatdı dağları belə.
Səksənib səsimdən qəfil oyandım
Od-alov içində yanırdım hələ.

Cənnəti atəşli, cəhənnəm odlu,
Yorğan da, döşək də yandırır məni.
Bəzisi bir röya, müxtəlif adlı,
Bəzisi yalandan qandırır məni.

Bilmirəm necədi alın yazısı,
Aləmi yaradan bir Allah bilir.
Baş üstə fırlanan əcəl baltası
Gah qol, budaq vurur, gah baş sılır.

Hər kəsin qarşıda şanlı günü var
Ondan bir addım da oyana keçmir.
Nə ömür bir yerdə tutmayır qərar,
Nə əcəl ləngiyir gecikə bilmir.

Bir yuxu yuyacaq qəmi, kədəri
Gecənin qoynunda batıb gedərək.
Dostlar, görsəniz də siz Səməndəri,
O yuxularında yatıb gedəcək.

*05.03.2024. Tovuz. Yanıqpəyə.*

## BAŞIMIN ÜSTƏ

Ölümdən nə qorxum, niyə çəkinim?
Dolanır həmişə başımın üstə.
Hacan gəlir, gəlsin, qapım açıqdır.
Yeri var gözümün, qaşımın üstə.

Yaradan bəxş etməz bir ömür daha
Min ömür gizlənər bir ömürdə ha...
Mənə bəxş etdiyi bu ömür baha,
Bölüb parçalayır başı min üstə.

Aqilə xəsisdi tərsə bu dünya,
Verir bəxşişini tərsə bu dünya.
Qoyub Səməndəri tərsə bu dünya,
Fırladıb, gəzdirir başının üstə.

*27.10.2022. Tovuz. Yanıqpəyə.*

* * *

Mənə çoxlu əllər uzanılmışdı
Biri irəli çəkir, biri arxaya.
Biri yad sifətli, biri tanışdı
Tanış cənnətdə də yetir haraya.

Düşərək bir çaya axıb gedirəm,
Cəhənnəm qapısı açılır mənə.

Şaha baş əyən tək təzim edirəm
Qapının önündə duran iblisə.

Məni od sarsıdır, ataş qarsıdır,
Hər yandan alovlar yağır üstümə.
Qaynayan qazanın qırı sarsıdır
Kafər də zövq alır yalxan tüstümə.

Əyyaşla, oğrular hər yan doluydu,
Hər kəs öz işində, öz gücündəydi.
Sanki bu cəhənnəm türmə quyuydu,
Alışmaq onların nə vecinəydi.

Baxma ki, gündə min yol belə yanırlar
Atəşin içiylə gəlib-gedənlər.
Cəhənnəm odunu heçə sayırlar
Dünya əzabına adət edənlər.

Cəlladlar gəzirdi erməni sifət
Saqqalı düşmüşdü dizdən aşağı.
Bir yanda gül-çiçək, bir yanda zülmət
Alov dil açmışdı bizdən aşağı.

Yamacda gözəllər gəzişirdilər
Kimisi yarımcan, kimisi xəstə.
Sevinib, şadlanıb, gülüşürdülər
Çoxu rəqs edirdi iynələr üstə.

Ətrafsa büs-bütün gül qoxuyurdu,
Günəş dövr edirdi zülmət içində.
Özünə al-yaşıl don toxuyurdu
Hər yan əlvan idi onun üçün də.

## GÖZ DOLU

Bu toy günü nədir belə buludlar?
Yenə dolub, yağdıracaq göz dolu.
Qoy ay doğsun, gün parlasın üzündə
Deyək, gülək, şənlik edək göz dolu.

Nəyin varsa bastırmala, sirkələ,
Qəh-qəhənlə yeri göyü silkələ.
Qoyma yaxın ortalığa sirr gələ
Götürməyən yaxşı, yaman göz dolu.

Sanki yağıb hər tərəfə gül, gülüm,
Yoxdu amma sənin kimi gül, gülüm!
Səməndərlə oyna gülüm, gül, gülüm!
Sən süzdükcə qəlb açılı, göz dolu.

## GƏRƏK OL

Gizlincə söz deyib, söz qovalama
Aşgara deməyə dilə gərək ol.
Taleyin ovcunda saxlasın səni
Hər sənə uzanan ələ gərək ol.

Zəhmətlə zirvəyə yüksələsən sən,
Daima zövq alasan öz əməlindən.
Yaradan bəxş etsin hər nə istəsən
Arxa dur obaya, elə gərək ol.

Bir yanın su olsun, bir yanın torpaq
Dostlar gəmi olsun, sənsə bir mayaq
Şölənlə gəlsinlər sahilə qıvraq
Olursan hamıya belə gərək ol.

Zəif şam şöləsi gündə görünməz,
Yananda elə yan şöləsi sönməz,
Sürətlə ötən gün geriyə dönməz,
Hər ötən saata, günə gərək ol.

Qəpik tək xərcləmə vaxtını hədər,
Təhsillə savadla özünü göstər.
Zaman güclü seldi, deyir Səməndər
Çağlayıb kükrəyən selə gərək ol.

*27.10.2022. Şəmkir.*

## TƏBRİKİM

*Tobolsk şəhərində Azərbaycan Cəmiyyətinin sədri, dostum İlham Pənahova.*

Bir oğlunun toy günüdü, a qardaş,
Düz Tovuzdan var Tabola təbrikim.
Ax, olaydım bu gün orda mən də kaş,
Səs salaydı min mahala təbrikim.

Pöhrələnib neçə arzu diləklər,
Qoy bəzəsin gül-çiçəklə mələklər.
Alqış desin bu saf eşqə fələklər,
Qucaq açsın sağa-sola təbrikim.

Tabol çayı sevincindən kükrəsin
Öz dilində bəstələsin nəğməsin.
Ətraf türkü türk toyuna səsləsin.
Gülə-gülə düşsün yola təbrikim.

Bu dostluğda yarı mənəm, yarı sən
Diləyirəm, oğul-qızdan yarı sən.
Övladdan dad nübarı sən, barı sən
Ləzzət alsın bala-bala təbrikim.

İlham qardaş, arzuların ay olsun,
İki sevən bir-birinə tay olsun.
Bu şeir də Səməndərdən pay olsun,
Çatdırılsin pürkamala təbrikim.

*17.09.2024. Tovuz. Qovlar.*

## GƏL DANIŞ

Dəli könül, susmaq sənə yaraşmaz
Söz düşəndə həqiqətdən gəl danış.
Nadan sözlə başa düşməz anlamaz
Min kitab aç təriqətdən gəl danış.

Dövr eyləyən gecə-gündüz boş deyil
İnsan oğlu ağac deyil, daş deyil.
Ruh sahibi gövdə üstə baş deyil,
Başsız olan bir xilqətdən gəl danış.

Günah düşür aqillərin üstünə,
Deyəmmirsə halal nədir, haram nə?
İmkan düşüb məmurların əlinə
Aldıqları bol rüşvətdən gəl danış.

Rüşvət minib qanunların belinə,
Hey çapırdır uzununa, eninə.
Kütlə düşüb çətin günə, pis günə
Çəkdikləri min zillətdən gəl danış.

Avropanı tərifləyib öyən biz,
Sonra dönüb təpikləyib, döyən biz
Bir mənsəbə qane deylik deyən biz.
Min mənsəbli bir millətdən gəl danış.

Bilən yoxdu zimistandı, bahardı?
Nə günəşdi, nə buluddu, nə qardı.
Kimin əli, kimin qəlbi qabardı?
İşsiz səhər, bom-boş kənddən gəl danış.

Baldır açıq, göbək açıq, lül açıq,
Hansı yana istəyirsən get açıq.
Çoxlarının yurdu olub alacıq
İndi otur mərifətdən gəl danış.

Dava-şava çoxlarına bəhanə,
Ömür sürür, gün keçirir şahanə
Törətdiyi de qalmayıb daha nə,
Eylədiyi daş zülmətdən gəl danış.

Bu nə qələm yarı sərxoş, yarı key
Xarabalar iynə ilə dolub hey...
Hər tərəfi yenə ələ salıb, ey!
Ay Səməndər, bu nə haray, nə giley,
Baş ağrıdan səfalətdən gəl danış.

* * *

Kiçik toyun mübarəkdi, mübarək
Bol arzular böyük toya dolaşsın.
Müsəlmanlıq aləmində qədəmin
Möhkəm olub doya-doya dolaşsın.

Çıxmısansa bu səfərə yaxşı yol,
Din yolunda, dil yolunda möhkəm ol.
Nurlu ağıl, iti məslək, zorlu qol,
Sağlam cüssən uca boya dolaşsın.

Səməndərin qəlbində çox arzu var:
Kök atmasın ürəyində intizar.
Tez böyüyüb tapasan bir nazlı yar
Qəlb evinə əlvan boya dolaşsın.

## DİZ ÇÖKSÜN

Komandanım, kəsmə döyüş əmrini
Düşmən üstə alov yağsın köz çöksün.
Çəngimizdən dağ oynasın yerindən
Qara bulud ayağına diz çöksün.
Düşmən gəlib düz önündə diz çöksün.

Otuz ildir torpağımız dardadır
Ürəyimiz alovdadı, qordadı.
ATƏT deylən görən hansı gördadır
Daha vaxtdır, saxta, yalan söz çöksün.
Düşmən gəlib düz önündə diz çöksün.

Qoy ordumuz düşmən üstə yerisin,
Mərdlər alsın dağın, düzün, dərəsin.
Bağlasınlar keçidlərin bərəsin,
Yol verməyin yüz yalvarsın, yüz çöksün.
Düşmən gəlib düz önündə diz çöksün.

Hər bir zəfər ermənyə dərd olsun,
Qubadlıdan, Zəngilandan rədd olsun!
Paşinyan yox, lap qonşusu fərd olsun.
Ayağına sürtüb belə üz, çöksün.
Düşmən gəlib diz önündə diz çöksün.

Ağdərədən, Kəlbəcərdən Laçına
Şanlı əsgər gedib çatsa haçana,
Yol verməsin hürküb, qorxub, qaçana.
Vahiməylə o tərəf də tez çöksün,
Düşmən gəlib düz önündə diz çöksün.

Yer üzünə səpələnən dığalar
Şər toxumu səpələyir harda var.
Haqq əliylə elə olsun tarımar
Külü göydən dəstlarına toz çöksün.

Baxma, qardaş, kanar əmrə, tələbə,
Fürsət varkən çalaq qəti qələbə.
Al boyansın hər yüksəklik, hər təpə
Lap Laçından Göycəyə də iz çöksün.

Elə gəlsin yurdumuza sülh dəmi,
Kaş görməyək birdə belə sitəmi.
Bu zəfərlə çiçəklənən ölkəmi
İstəməyən o gözlərə boz çöksün.

Zülm əlindən torpağımız oyansın,
Tam Qarabağ gül-çiçəyə boyansın.
Xidmətində Səməndər də dayansın.
El-obaya gül-çiçəkli yaz çöksün.

*13.10.2020. Tovuz. Yanıqpəyə.*

## YARAŞIR

İgid əsgər, şanlı əsgər, mərd oğul
Nə ad desəm bil ki, sənə yaraşır.
Tufan ol əs, şimşək ol çax düşmənə
Süst dayanmaq sürünənə yaraşır.

Torpaq qeyrət, meşə ismət, dağ vüqar
Kimdə olsa əsil qeybət düz ilqar,
Qartal kimi zirvələrdə hayqırar.
Toyuq kimi qorxaq hinə yaraşır.

Keçmişini hey yadına sal gətir,
Qılıncını Atilladan al gətir
Metelərdən döyüş öyrən, qol gətir,
Onlar hamısı, bax, bu günə yaraşır.

Sən türk oğlu bir ocağın qorusan,
Tuğyan edib bu ocağı qoru sən.
Qoy sizinlə ayaqlansın hey Turan,
Türk elləri bir-birinə yaraşır.

Hünər üçün Qarabağdı bir meydan,
Od tək kükrə, alov püskür dörd yandan
Sənə zəfər, bizə olsun imtahan,
Yaxşı cavab qiymətinə yaraşır.

Qorxutmasın böhtan səni, şər səni,
Şərəfini ucalt, qoru ölkəni,
Tülkü sifət, iblis donlu erməni,
Hər deşiyə sinə-sinə yaraşır.

Otuz ildir tapdaq altda o yerlər,
Gecə-gündüz səni anıb inildər.
Otuz ildir həsrət çəkir Səməndər,
Bu nə yaşa, nə də sinə yaraşır.

*13.10.2020. Tovuz. Yanıqpəyə.*

## BUNDA

Hər an qan ağlayar, hər an qan qusar,
Elə bil dünyanın xəracı bunda.
Yığdığı sərvəti top da dağıtmaz,
Toplanıb var-dövlət baracı bunda.

Dəyməyib başına haqqın pəncəsi,
Onunçün gur çıxır hər zaman səsi,
Qarsıdır dörd yanı alov nəfəsi,
Birləşir əjdaha qulacı bunda.

Xislətdə şeytandan iblisdən betər,
Sözündə hiylə, əməlində şər.
Səməndər nə olsun, dar düşüncələr,
Axtarır nicatı, əlacı bunda.

## KƏLBƏCƏR

Sən əsirlərin sınağından keçmisən,
Çox çəkildin imtahana, Kəlbəcər!
Sığışmırdı dil-ağıza şöhrətin.
Səs salmışdın bu cahana, Kəlbəcər!

Çox çatmısan igidlərin dadına,
Necə durlu dastan çıxdı adına.
Axır düşdün satqın, xain toruna
Bağıraraq yana-yana, Kəlbəcər!

Otuz ildi tapdalandın, talandın,
Pozulmadı, qırılmadı inadın.
Puc olmadı gözlərində muradın
Qovuşursan öz arzuna, Kəlbəcər!

Buz erməni – diz yalayan dığalar,
Qoymadılar dörd yanında bir tutar.
Əcəl gəzən istəyinə tez çatar
Qan axıdan düşər qana, Kəlbəcər!

Qurban olum torpağına, daşına
El-obanı çağır, topla başına,
Biz də gələk yubleyinə, yaşına,
Hamımıza sənsən ana, Kəlbəcər!

Nəvələrin tarix yazır, bil, bu gün,
Düşməninə topla tutur döy-düyün,
Sancılıbdır zirvələrdə gördüyün
Bayrağımız hər məkana, Kəlbəcər!

Fəxr edəcək hey səninlə dost olan,
Sirlərinə agah olub, dərd duyan,
Səməndərə nəzər salsan bircə an,
O baş qoyar ayağına, Kəlbəcər!

*14.10.2020. Tovuz. Yanıqpəyə.*

## BU GÖZƏL

Alov desəm alov məndən inciməz,
Alov dilli bir ceyrandı bu gözəl.
Ac qurd kimi qəlb gəmirir baxışı
Dünya boyda bir seyrandı bu gözəl.

Qəd-qaməti şimşək kimi can yaxır,
Elə bil ki, səmalardan ay baxır,
Yeriyəndə deyirsən ki, su axır,
Dayananda bir ümmandı bu gözəl.

Gör nə gözəl nəqş eləyib yaradan
Görənləri mat eyləyib qoyur dan.
Səməndəri kənar edib sıradan
Görən kimə bəs heyrandı bu gözəl.

*24.05.1984.*

## ƏSGƏRLƏR

Komandan əmr etdi ki, hazır ol!
"Ol"unuza qurban olum, əsgərlər.
Cihad üçün geniş yoldu Qarabağ,
Yolunuza qurban olum, əsgərlər.

Sizsiz ümid bu Vətənin dar günü,
Tez geyinin ərənliyin kürkünü,
Əzib tökün çaqqalları, tülkünü,
Qolunuza qurban olum, əsgərlər.

Bir atəş tək od içindən çıxmısız
Düşmənlərin can evini yaxmısız.

Evlərini başlarına yıxmısız
Dolunuza qurban olum, əsgərlər.

Cəbrayılı, Fizulini aldınız,
Zəngilanda bayram toyu çaldınız
Qubadlıda dalğalandı ay, ulduz,
Boyunuza qurban olum, əsgərlər.

Azadlıqdı əsir yurdun arzusu,
İş bitməyir Qarabağla, doğrusu,
Unutmayın Zəngəzuru, Gorusu
Soyunuza qurban olum, əsgərlər.

*24.09.2020. Tovuz. Yanıqpəyə.*

## İGİD ƏSGƏR, ŞANLI ƏSGƏR İRƏLİ

Sənə xalqın, komandanın əmridir!
İgid əsgər, şanlı əsgər, irəli!
Bu qan içən dığaları vur endir
Qoyma qaça bir dərbədər, irəli!

Qanımızla bələnibdir bələyin,
Özülüsən hər arzunun, diləyin,
Vur dedikcə güclü olsun biləyin,
Keçənməsin nə qovğa şər, irəli!

Vətən üçün ürəyini daş elə,
Qələbəni hər arzudan baş elə.
Düşmənlərin ümidini boş elə
Sonda çıxsın şanlı zəfər, irəli!

Yağı düşmən hiylə ilə, kələklə,
Əlləşirlər gecə-gündüz fələklə,
Yavaş-yavaş sən də dənlə, ələklə
Bəla gəzən bir-bir gələr irəli!

Düşmənin hər planını tərs elə,
Xülyasını, xəyalını tərs elə
Öz gücünü dünya üçün dərs elə
Qərbi, şərqi tutsun xəbər, irəli!

Otuz ildir tapdaqdadır bu yerlər,
Yol gözləyir Şuşa, Laçın, Kəlbəcər.
Bütöv yurdu azad görsün Səməndər.
Günəş doğsun sənlə səhər, irəli!

*15.10.2020. Tovuz. Yanıqpəyə.*

## ...ƏSGƏRLƏR

Paşinyana öyüd verin, dərs verin
Qoy tökməsin zəvzəkləyib baş beyin.
Tez eyləyin siz Şuşada toy-düyün,
Haqq toyuna qurban olum, əsgərlər!

Nə Xocavənd, nə Ağdərə, nə Ağdam
Torpağında yaşamasın yad adam.
Xan Kəndi də ucalt, yarat ehtişam,
Sağ, soluna qurban olum, əsgərlər!

Əsgərandan elə qov ki, düşməni,
Tarix boyu unutmasın qoy səni.
Kəlbəcərə sipər eylə sinəni,
Al qanına qurban olum, əsgərlər!

Şuşa qeyrət, Laçın zəfər simvolu,
Bayrağınla adla şanlı bu yolu.
Qaytar geri şöhrətini, türk oğlu,
Silahına qurban olum, əsgərlər!

Bir tarixdi bu döyüşdə hər əsgər,
Bir əsgərdi arxanızda hər nəfər,
Səməndərlə birgə deyir kənd, şəhər:
-“Ay canına qurban olum”, əsgərlər!

*20.10.2020. Tovuz. Yanıqpəyə.*

## ƏSGƏR

Tezliklə qov Qarabağdan düşməni,
Qələbənlə yeni tarix yaz, əsgər!
Bu erməni yer üzünün murdarı
Yaranıbdır əzəl gündən paz, əsgər.

Otuz ildi Qarabağdan bircə an,
Çəkilmədi qəlb donduran zimistan.
Budur sənə xalq önündə imtahan.
Zəfərinlə gətir ora yaz, əsgər!

Millətimiz ümid edir bir sənə,
Qoyma qala yurdda yad bir dənə,
Şimşək tək çax başlarının üstünə,
Köklərini lap dərindən qaz, əsgər!

Harayınla dağı, daşı silkələ,
Şimşək olsun gözlərində hər gilə.
Atəş yağdır xainlərin mülkünə,
Tamam olsun, xanımanı toz, əsgər!

Bəd alışan ocaqları tez söndür!
Babaların ruhlarını sevindir!
Ta binadan o yurd-yuva sənindir
Qalib olub alnı açıq gəz, əsgər!

Göstərdikcə hər döyüşdə sən hünər,
Bayrağına qucaq açsın zirvələr.
Elə coşsun sevincindən Səməndər,
Tel-tel olsun ürəyində saz, əsgər!

## AY ANA

*İrkutsk şəhərində məskunlaşan dostum*
*Sedoy-Vaqif Məsim oğlunun dilindən:*

Mən səni taqətim, dözüm sanırdım,
Qırıldı taqətim, dözüm ay ana!
Gözümdən getmədi ata həsrəti,
Göylərə dikildi izim ay ana!

Qara yel qanadlı bu acı xəbər,
Qəlbimi qurd kimi didib göynədər.
Üzümə qapandı bütün sərhədlər,
Özümü yandırdı, özüm ay ana!

İçimdə dağlanıb dağ oldu dərdim,
Kas bu Karonanı viran görəydim.
Mən belə qisməti hardan biləydim,
Ərşə tufan oldu közüm, ay ana!

Əcəl bu tərəfdə durarkən qəsdə,
Dayana bilmədim başının üstə.
Barı bu son anda, bu son nəfəsdə
Yuyaydı əlini gözüm ay ana!

Yedi ürəkləri karona qurdu,
Sərhəd qapına qıfıl vuruldu.
Ən çətin əngəllər önümdə durdu,
Keçmədi yanında sözüm ay ana!

Nə günə qoyubdu bu həsrət bizi,
Dəfn edə bilmirik əzizimizi,
Qolumu bağlayan əzab dənizi
Qoymayır bir yana üzüm ay ana!

Torpağı oyatdın intizarınla,
İndi bir ana tək onu qucağla.
Getdiyin müqəddəs, o nurlu yolla
Sürtülsün izinə üzüm, ay ana!

Məni qınamasın dar düşüncələr,
At tək şahə qalxdı qəlbimdə qəhər.
Vaqifəm, dərdimi yazdı Səməndər,
Qeyri tapammadım çözüm, ay ana!

## CİVİLDƏ

Sərçə qardaş nə salmısan civ-civi,
Birgə oxşar dərdimizdən civildə.
Heç bir zaman yuvamızdan dönmədik,
Bizə doğma yuvamızdan civildə.

Harda ağrı, əzab varsa biz orda,
Nə boranda, nə şaxtada, nə qarda,
Nə gen gündə, nə bəd gündə, nə darda,
Əyilməyən əzmimizdən civildə.

Görünmədi yad ellərdə yuvamız,
Müqəddəsdi öz elimiz, obamız.
Alov saçır qəlbimizdə sobamız,
Şaxta vuran dizimizdən civildə.

Dağa vursan, dağ oynadar dərdimiz,
Bəslənmədik ovuc-ovuc dənlə biz.
Kislənərək hey daşlandıq sənlə biz.
Ağız açıb çıxan kimi səsimiz
Dağ çəkilən belimizdən civildə.

Bu yurd bizim, bu el bizim, biz heçik,
Yol salınır üstümüzdən min keçik,
Səməndərə de ki, artıq biz gecik.
Bir ötürüb özümüzdən civildə.

Mıxta qalıb döyülən də tək bizik,
Şər böhtanla söyülən də tək bizik,
Əzilən də, əyilən də, tək bizik,
Polad kimi səbrimizdən civildə.

*15.08.2020. Tovuz.*

## HAY HA HAY

Düz seçmədik heç bir zaman qonşunu
Tez-tez çıxdı ortalığa hay-haray.
Yersiz gəldi, yerli qaşdı, həmişə.
El köç etdi dörd bir yana hay-ha hay!

Dili yalan, əli əyri, biz iblis.
Varmı belə bu dünyada bir xəbis.
Beyni duman, qəlbi tufan, gözü şiş,
Bitən deyil bəd sifətin ay ha say.

Belə zəlil, belə rəzil və xain,
Tapammayıb yer üzündə heç tayın,
Dünya uyub yalanına bu hayın
Açıb qapı üzlərinə tay ba-tay.

Ağlı kəsən söylədi ki, kimsiniz
Oğrusunuz, quldursunuz bilsəniz.
Əzəl gündən bəşər üçün kinsiniz,
Bağırırsız yazıq-yazıq Hay, ha Hay.

Əksik olmur bellərindən palanı,
Çox sevirlər terrorluğu talanı.
Ay Səməndər, kütlə deyə bir az yerdə qalanı
Əl açaraq zarıyırlar pay-ha pay.

*17.08.2016.*

## SÖZÜN

Na qabilə, nadürustə söz demə,
Yerə düşüb yalamasın yer sözün.
Bacardıqca çox düşünüb az danış.
Ləzzət versin dinləyənə tər sözün.

Hər gücünü, qüdrətini sözdə bil,
Hər kəlmənin öz yerini gözdə, bil.
Çox hikməti, çox mənanı gözdə bil.
Qəlb qazıyıb, törətməsin şər sözün.

Söz yönəldər bir qoşunu ləşkəri,
O yetirər sərkərdəni, əsgəri.
O an zamanı qına soxar xəncəri,
Dayanammaz qabağında ər sözün.

İlk kəlməni söyləyibdir Yaradan.
Söz olubdur kainatı yaradan.
Elə bəlkə o cümlədən, sıradan,
Meyarıdır ləli-kövhər, zər sözün.

Söz zərbindən dağlar, daşlar əriyər,
Bircə anda min bir fəsad törəyər,
Süngüsünü Səməndərə dirəyər,
Biləmməsə dəyərini hər sözün.

## QOCALIQ

Kim deyir qocalıq mələk kimidir?
Nə huridi, nə mələkdi qocalıq.
Huriləri mələkləri itirib,
Dönüşünə min kələkdi qocalıq.

Cavanlığı yada salıb doluxur
Tay-tuşunu itirdikcə soluxur.
Düşən şehdən, əsən mehdən yoluxur
Biçin anı biçənəkdi qocalıq.

Gecələri gündüzlərin dalınca,
Qəhrə düşür bir-bir yola salınca.
Axşamları baş qoyunca balınca
Dağı-daşı sürünməkdi qocalıq.

Xoş nəfəsi hər bir kəsə gərəkdi
Cavanlığa xoş arzudu, diləkdi,
Qanan üçün bir sütündü, dirəkdi.
Nadan üçün görünməkdi qocalıq.

Səməndərə bir ömürün zirvəsi,
Ürəklərdə həzzin ötən ney səsi,
Heyif çatır az adama nəfəsi,
Könüllərdə isinməkdi qocalıq.

## OĞLAN

*Kəndlim və qohumum Salman Məhər oğlunun yeganə oğlu Cavid Salman oğluna həsr olunur*

-"Cavid" əbədi olan deмək...
Adın tək əbədi ad qazan, oğlan.
Adlar körpələrə şərti qoyulur.
Dillərdə adına dad qazan, oğlan!

Yarat ürəklərdə sevgi dastanı,
Sevgidir yaşadan bil ki cahanı,
Sevgiylə qazanır insan insanı.
Dostluğu bərk tutan yad qazan, oğlan!

Atanın, ananın dur köməyində,
Gül açsın arzular ürəklərində.
Onlardan güc alsın biləklərin də,
Hər bir zəfərini şad qazan, oğlan!

Bu qurbət diyara vətəndi demə
Ruhsuz gördələrə bədəndi demə
Öhdənə düşən borc ödəndi demə.
Arısan balına yöd qazan, oğlan.

Səməndər əmini çıxarma yaddan,
Yananda el üçün, Vətən üçün yan,
Ay kimi yuxula, gün kimi oyan,
Qəlbləri isidən od qazan, oğlan!

# YANIQPƏYƏ UŞAQLARI

Tanrı sizə yar olsun,
Yanıqpəyə uşaqları.
Yadlar baxıb qoy xar olsun,
Yanıqpəyə uşaqları.

Açıq olsun yollarınız.
Güclü olsun qollarınız,
Hər an gəlsin xoş sədanız,
Yanıqpəyə uşaqları.

İnci kimi səpələnin,
Dəniz kimi ləpələnin,
Ürəklərdə təpələnin,
Yanıqpəyə uşaqları.

İgid olun, qoçaq olun,
Şər xətadan qaçaq olun,
El-obaya ocaq olun.
Yanıqpəyə uşaqları.

Dağlar kimi zirvələnin
Səmalara cilvələnin,
Ürəyisiz Səməndərin,
Yanıqpəyə uşaqlar.

# SİZSİNİZ

Bir bağçayam göz oxşayan,
Gülüm sizsiniz, sizsiniz.
Yol üstündə bir çinaram.
Qolum sizsiniz, sizsiniz.

Hər biriniz bir zərdə dən,
Boy atırsız göyərmədən.
Saxələnən ürəyimdən,
Yolum sizsiniz, sizsiniz.

Bu dünyada dövlət, varım,
El-obaya etibarım.
Sağ qolumdu övladlarım,
Solum sizsiniz, sizsiniz.

Hər gülün öz ətri var,
Hər bağçanın göz ətri var.
Dodaqlarda söz ətri var,
Dilim sizsiniz, sizsiniz.

Səməndərə ömür deyə,
Yavaş-yavaş uçur göyə,
Obamızdı Yanıqpəyə
Elim sizsiniz, sizsiniz.

## APARIR

Neçə illərdir ki, ayrılıq, həsrət,
Başımız üstündə qılınc oynadır.
Kövrək xatirələr düşüncə fürsət
Uşaq tək çəkərək geri aparır.

O köhnə institut da xan çinar,
Önündə döyükən bir incəbədən.
Əlimi uzatsam çəkib aparar
Qoparıb əlini hicran əlindən.

Boylanıb baxırıq əlli il geri,
Nə o şuxluq qalıb, nə o incəlik,
Ömür-gün dəyişib o ildən bəri,
Qalıbdır bir görüş, bir də-hələlik.

Sabah görüş günü, vüsal dəmidi,
Yığılın bir yerə, yığılın, dostlar.
Bu gündən sabaha ataq kəməndi,
Bir neçə görüşə hələ ümid var.

Uşaqlıq an çiçəyi.
Cavanlıq can çiçəyi.
Qocalıq özü açır
Yeni dövran çiçəyi.

## BİLMİRƏM

Bir nadan qohuma dürcah olmuşam,
Fikirdən, xəyaldan yata bilmirəm.
Taxılıb qoluma protez kimi,
Çıxarıb bir yana ata bilmirəm.

Nə öyüd anlayır, nə də söz qanır,
Nə ayıb eyləyir, nə də utanır,
Hər yanda od yanır, ocaq qalanır,
Əlindən bir cırpı çata bilmirəm.

Addımda hamıya badalaq gəlir,
Təpinsən gözündən sellər ələnir.
Min aman eyləyir, anda bələnir,
Saplanıb heç hansı sapa bilmirəm.

Daşı aş eyləyir, aşa daş qatır.
Əlindən iş gəlmir elə bas qatır,
Qurunun gözünə şələ yaş qatır,
Özünü bir işə qata bilmirəm.

Səməndər neyləsin bax beləsinə,
Nə desəm eyləyir tamam əksinə,
Boy buxum oxşayır dağ kələsinə,
Bir başdan eləyib sata bilmirəm.

## ÇƏKƏN

Açа sinəsini o nazlı pəri,
Danışa, oynaya sazı mən çəkəm.
Lap dimdik dimdiyə göyərçin kimi
O işvə göstərə nazı mən çəkəm.

Gisgin, duman çökə yağış ələnə,
Bütün əndamımız suya bələnə,
Bədənə hərarət isti gələnə.
Ola bu qəhrini azı mən çəkəm.

Üzümü söykəyəm üzünün üstə,
Tikiləm qaş kimi gözünün üstə.
Əlimi gəzdierəm dizinin üstə,
O nazik bədənə üzü mən çəkəm.

Gizlincə taparaq bir xəlvət bucaq,
Girək bir köynəyə olaq bir qucaq,
Özümüz od olaq, özümüz ocaq,
Atəşə qalanaq közü mən çəkəm.

Xəyal daramaqla ələ nə gədər,
Ağız sulatmaqla gölə nə gələr.
Səməndər, yüz söylə ölənə qədər
Rəvamı tənəli sözü mən çəkəm.

## SABAHINIZ XEYİR

Quşlar öz şən səsiylə,
Çöl-çəmənlər nəfəsiylə,
Təbiət öz həvəsiylə
Deyir: -Sabahınız xeyir.

Xoruz odur hinində,
Bir ağsaqqal şenində.
Qışqırıb xoruz dilində,
Seypur çalıb əlində
Deyir: -Sabahınız xeyir.

Qızıl gül eşq havasında,
Bülbül ötür yuvasında.
Hər kəs sevgi nəvasında,
Bu səhərin şəfasında
Deyir: -Sabahınız xeyir.

Bağlar gəl ha gəl eyləyir
Yarpaqlar əl eyləyir.
Xan çinarlar söyləyir,
Qaranquşlar yem teyləyir
Deyir: -Sabahınız xeyir.

Qarğıdalı telin açıb,
Hər tərəfə ləçək saçıb,
Bir ağsaqqal önə qaçıb,
Deyir: -Sabahınız xeyir.

Yağış yağır sular daşır,
Navalçalar pırıldaşır.
Damcılar hey qıyıldaşır,
Bir-biriylə salamlaşır
Deyir: -Sabahınız xeyir.

Hər dövürdə, hər zamanda,
İşiniz düşsün avanda.
Üzlər gülsün hər bir yanda,
Səməndər də həmin anda
Desin: -Sabahınız xeyir!

## YOXDU

Ucanı uca gör, alçağı alçaq,
Önündə bir çəpər, barı ha yoxdu.
Yaxşıya yaxşı de, yamana yaman.
Dilini sancacaq arı ha yoxdu.

Hər kəsi görəndə öz donunda gör,
Bir sınaqdan keçir, öz yanından gör.
Pisin pisliyini zamanında gör,
Gözünün pərdəsi, toru ha yoxdu.

Səməndər, nanəcib kəsdən gendə dur,
Anla ki, dar gündə qənimin odur.
Alçaqlıq alçağın həyat yoludur,
Ayrı bir qeyrəti, arı ha yoxdu.

## BU HƏYAT

Bir pətəkdi, bir barmaqdı, bir də tam,
Kimə azdı, kimə çoxdu bu həyat.
Qapısına boş gələnlər, boş gedir,
Səxavətdən əzəl yoxdu bu həyat.

Kim görübsə ləzzətini göz dolu,
Gedənməyib sona qədər bu yolu,
Ya baş itir, ya ayağı, ya qolu.
Hər sinəyə dəyən oxdu bu həyat.

Seçəmməyir nə yaxşını, yamanı,
Dara çəkir bircə qismət umanı,
Uygun gəlmir dini ilə imanı,
Dizə qapaz, dilə "ox.."du bu həyat.

Göz oxşayan nazlı gözəl olsa da,
Sinəsində meydan açıb qan-qada,
Kimi sevir sonra verir tez bada
Gir ha girdi, sox ha soxdu bu həyat.

Uyanların ləzzətinə dadına.
Gözlərində bənzədi xoş qadına,
Yanan kimi atəşinə oduna
Haray təpdi, məni yaxdı bu həyat.

Səməndərə əsirgədi nazını,
Tez döndərdi zimistana yazını.
Elə çaldı yana-yana sazını,
Qan yaş olub gözdən axdı bu həyat.

## YEM EDƏR

Nadürüstə, nanəcibə yanaşma
Tülkülərə, çaqqallara yem edər.
Elə basar barmağını gözünə,
Didələri saqqalara yem edər.

Tanımasan zatını, ya söyünü,
Aldanarsan uca görüb boyunu,
Umsan əgər bircə damla suyunu.
Gözlərini bıçaqlara yem edər.

Umacağı varsa əgər, bil səndə,
Min əməllə salar səni kəməndə,
İş əyilib sözün tərsə gələndə
Parçalayıb baqqalara yem edər.

Yaltaqlanıb ocaq sanar özünü,
Yavaş-yavaş qəlbə salar közünü.
Bircə kəlmə yerə salsan sözünü
Kürəyini şallaqlara yem edər.

Ay Səməndər, ruh oxşamaz boz çalar
Alçaq ilə həmdəm olan alçalar
Bir eybini desən əyər parçalar
Hər şaqqanı sallaqlara yem edər.

# APARIR

Oturub düşünürəm, xəyalımdan gör nə keçir.
Dolanaydı xoş viravan bu dünyada cümlə fəqir,
Gör ki bir bu dünyanın aqibətin kimlər seçir-:
Əzabın kasıb çəkir ləzzətini "xan" aparır,
Zülm edib cümlə xəlqə, nə varsa imkan aparır.

Əlləri bağlı qalan  yoxsulların halı xarab,
Tökülür hər tərəfdən üstlərinə cümlə əzab.
Şiddətə adət edib, hər əzaba gətirir tab,
Haqqını göstərəcək yoxdu qanun, yoxdu kitab,
Nəyi var məmur edib qanına qaltan aparır.
Zülm edib cümlə xalqa, verməyib imkan aparır.

Əkinçi neyləsin ki, gecəsi yox, gündüzü yox,
Çalışır qarışqa tək bir qarnı aç, bir qarnı tox.
Yazığı əldən salıb bu vur ha vur, bu sox ha sox,
Ümidlə zilləyibdir yuxarıya gözünü çox
Əllərini qabar tutur, gözlərini qan aparır
Zülm edib cümlə xalqa, verməyib imkan aparır.

Bax odu qul bazarı, dərya kimi çalxalanır.
Girərək ağır işə çox cavanlar axtalanır.
Murazı gül açmamış dörd tərəfi taxtalanır,
Üzülüb mənlik evi yavaş-yavaş saxtalanır,
Ömrünə qılınc çəkib belə ağır an aparır,
Zülm edib cümlə xalqa, verməyib imkan aparır.

## BU GÜN

*Məzun olmamızın 44 illiyi münasibətiylə 12.10.2024-cü il tarixdə Gəncədə keçirdiyim görüş zamanı.*

Könül sanki Həccə gedib,
Düz Minaya dəydi bu gün.
Bu görüşün hər bir anı,
On bir aya dəydi bu gün.

Məclisin xoş qonaqları,
Gəncliyimin ulduzları,
Dəcəl oğlan, şən qızları,
Günə, aya dəydi bu gün.

Yada saldı şux günləri,
Qəlb titrədən gülüşləri,
Bu ömrümün inciləri,
Neçə paya dəydi bu gün.

İllər ötdü pərdə-pərdə,
Hər bir kəsin nəzərində,
Əlli ilin üzərində.
Hicrə qaya dəydi bu gün.

Uzun yolu edib qısa,
Zaman ilə girib bəsə.
Qəhraman da bu məclisə,
Saya-saya dəydi bu gün.

Xatirələr küpələndi,
Qızıl oldu səpələndi,
Səməndərə payız gəldi,
Əlli yaya dəydi bu gün.

# GÖRƏM

Qayıdam o yurd yerinə yenə.
Elimi, obamı, yerində görəm.
Üç qardaş – bir bacım geriyə dönə
Atamı, anamı evində görəm.

Üç haca üstündə minəm nehrəni,
Bacım, qardaşlarım yellədə məni,
Anam axşam üstü qura cəhrəni
Özümü dizinin dibində görəm.

Hay deyəm, qayalar haylaya məni
Atam quzularla haylıya məni.
Comada yemləyə, çaylaya məni,
Uyuyub qalmışam sərində görəm.

Hər payız fəslində köç geri dönür
Heyif ki, zaman geriyə dönmür.
Nə atam, nə anam gözə görünmür
Bəlkə o göylərin şərində görəm.

Səməndər, uçmağa yoxdu qanadım,
Neçə yol cəhd etdim, sındı inadım
Öz yalanlarıma özüm inandım.
Ümid var enərək dərində görəm.

*04.11.2024. Qovlar.*

## MÜBARƏK

Qardaşlarım, bacılarım, dostlarım,
Ömrə gələn Novruzunuz mübarək.
Alovlanan ocağınız gur olsun,
Daim olsun qoy üzünüz mübarək.

Oda yansın qoy kədəri, nisgili,
Bəd nəzərin açılmasın heç dili,
Gülə-gülə qarşılayın hər ili,
Aşıb-daşsın bol ruzunuz, mübarək.

Sağlam canla ağzınızda dad olsun,
Qohum-qardaş dövrənizdə şad olsun.
Qəlbinizdə atəş olsun, od olsun.
Parıldasın ulduzunuz mübarək.

Allah özü qoy min etsin bir dəni,
Könül olsun şadlıq, sevinc məskəni.
Şad günlərdə abad edək Vətəni.
Hər gecəniz, gündüzünüz mübarək.

Zimistanın qəlbi uçub, sökülsün,
Torpaq gülsün, oba gülsün, el gülsün.
Düşmənlərin görən gözü tökülsün,
Səməndər, de, ay gününüz mübarək.

*20.03.2024. Tovuz. Yanıqpəyə.*

## DOSTLAR

Bayram gəldi, bayram ötdü.
Bayram gəlsin yenə, dostlar!
Ömür keçsin toy bayramla,
Hər an gülə-gülə, dostlar!

Novruzu şad qarşıladıq,
Dedik, güldük, ləzzət aldıq,
Xoş ovqatla yola saldıq.
Bizdən bir il oğurlayıb.
Getdi sinə-sinə, dostlar.

Yeni günlə qucaqlaşdıq,
Bir azca da ucalaşdıq,
Bir azca da qocalaşdıq,
Günü, ayı qucaqlayıb,
Dolduq yaşa, sinə, dostlar.

Neçə yerə papaq atdıq,
Eşq düzündə at oynatdıq.
Sevinc daddıq, qəmə batdıq.
Saçlarını sığallayıb,
Saldıq o dar hinə, dostlar.

Xatirələr hinindəyik,
Budaqda quş günündəyik,
Uçacağıq bir dəfəlik,
Yeni günlər soraqlayıb,
Qalxıb enə-enə, dostlar.

Qoy unudaq nəs illəri,
Yada salıb xoş günləri,
Unutmayın Səməndəri
Hərdən-hərdən xatırlayıb,
Bir zəng edin mənə, dostlar.

## GEDİR

Nanəcib cəng yer üzündə,
Əsil cəng beynimdə gedir.
Məni görüb duyan yoxdu,
Nəzərlər geymimdə  gedir.

Əzəldən haqqın diliyəm,
Eşqə çarpılmış dəliyəm
İçimdən qopmuş ölüyəm
Tabutum çiynimdə gedir.

Olmasa yanımda yarım,
Şəhərəm, uçmuş divarım,
Qəlbimdə o füsukarım,
Sərvətim əynimdə gedir.

Məndə sənsən, səndə mənəm,
Bu vəhdətdən dönəmmərəm.
Səməndərdən küsən Sənəm,
Surətin eynimdə gedir.

## YERİ VAR

Zamanla ilə cəhl eləmə
Dərin qatda tor yeri var.
Gah sərt olur, gah mülayım.
Külü altda qor yeri var.

Zalım-zalımlıqdan qoca,
Qırx ayaqdı, başı haça.
Haqsızlıq tanrıdan uca,
Nə bir utanc, ar yeri var.

Cəhd eləmə, tutmaq çətin
Qənimidir həqiqətin,
Belində daşı millətin,
Qaldırmağa zor yeri var.

Əl uzanır, ələ çatmır,
El sərvəti elə çatmır.
Çoxlarına hələ çatmır
Yaşamağın gor yeri var.

Ay Səməndər, sellər daşır,
Üstündə günahlar oynaşır,
Hər yandan iblis ulaşır,
Hələ selin gur yeri var.

# ƏLİYLƏ

Gül çiçək çəməndə saralıb gedir,
Çamurdan ev olur saman əliylə.
Qılınc kəsərini işə salmamış
Ox işi bitirir kaman əliylə.

Bir düz min əyrini deşib keçsə də,
Düzü düz saxlamır çoxu-çox vədə
Əslini, nəslini bilməyən gədə,
Dünyaya hökm edir zaman əliylə.

Zalımın bəxşişi, payı tələdi,
Məzlumun qəm yükü şələ-şələdi.
Tanrının qərarı, hökmü belədi:
Yaxşılar ovulur yaman əliylə.

Əyrilər varını haxlaya bilmir,
Düzlər susuzluqdan ağlaya bilmir.
Doğru bir qoyun da saxlaya bilmir,
Oğru köç oturur duman əliylə.

Haqqın haqq deməyə, haqqa sözü yox,
Haqqın heç gözündə haqqın özü yox.
Səməndər, kimsənin haqda gözü yox.
Nə varsa ələnir güman əliylə.

*15.10.2024. Qovlar. Tovuz.*

# MƏNDƏN

Ha çalışdım uzaq duram.
Uzaq durmur bəla mənnən,
Bir həyasız ləçər kimi,
Hey çalışır qala mənnən.

Boğazıma yaman çöküb,
Can evimi tamam söküb,
Qədəhimə zəhər töküb,
Vurur bala-bala mənnən.

Gəncliyimi nəmər aldı,
Şuxluğumu kəmər aldı,
Bir qoçalıq mənə qaldı
Onu umur çala mənnən.

Sinəm üstə oyalanıb,
Yatıb, durub, sayalanıb,
Qəm, kədərim, tayalanıb
Çəkir sağa-sola mənnən.

Keçirik ömrün səddini,
Yaşayırıq son həddini.
Səməndərə kəməndini,
Atıb gedir yola mənnən.

*27.08.2023. Qovlar – Yanıqpəyə.*

## OLAN YERDƏ

Könül necə ağlamasın,
Uçub tarmar olan yerdə.
Ürək gülüb, qəlb açılmaz
Dildə ah-zar olan yerdə.

Deyirlər var əl çirkidi,
Varsız yaşa görüm indi,
Səni saya salan kimdi
Dövlətil var olan yerdə.

İnanmırsan ətrafa bax,
Kim kasıba durur dayaq?
Savadlılar qalıb qıraq,
Meydan dar olan yerdə.

Axtarır kənd şəhərdə,
Ruzi gəzir küçələrdə,
Gözlərinə gəlir pərdə
Hamı bikar olan yerdə.

Səməndərin qəlbi yanır,
Oba köçüb, el talanır.
Sağa-sola baş fırlanır
Dilə inkar olan yerdə.

*10.07.2022. Tovuz – Yanıqpəyə.*

## AĞLAMA, "KƏRƏMİ", AĞLAMA

Keşiş sənə zülm elədi,
Ağlama, "Kərəmi", ağlama.
Xisləti, xoyu belədi,
Ağlama, "Kərəmi", ağlama.

Kərəm yandı, Əsli yandı,
Ahları göyə dayandı.
Uçan quşlar oda yandı,
Bu keşişin dişi qandı
Ağlama, "Kərəmi", ağlama.

Çox əsirlər gəldi keçdi,
Neçə Kərəm, Əsli seçdi
Anlamadıq bircə kərə,
Belə eşqin sonu heçdi
Ağlama, "Kərəmi", ağlama.

Səndən sonra milyon kərə,
Urcah oldu Əslilərə
Əsir olduq keşişlərə,
Zülüm-zülüm hədər yerə
Ağlama, "Kərəmi", ağlama.

Başdan-başa dilin zardı,
Bu nə ahdı – ahu zardı?
Səməndəri oda sardı,
Külümü yadlar apardı,
Ağlama, "Kərəmi", ağlama.

*Tovuz. Qovlar. 12.07.2022.*

## BAYRAQ

Min illər uzunu, min illər boyu
Millətin adıdı, sanıdır bayraq.
Cəngiylə göyləri yeri titrədən,
Qoşunu, ordunu tanıdır bayraq.

Allahın hayqırıb coşan dənizi,
Səhralar, zirvələr aşan dənizi,
Sibirdən Dəcləyə qoşan dənizi,
Önündə hərəkət anıdır bayraq.

Sulanıb boyandı şəhid qanında,
Tarixdə tanındı öz nişanında.
Ucalar göylərə zəfər anında,
Dövlətin şöhrəti, şanıdır bayraq.

Üç rəngli bayrağım üç zamanımdı,
Danışan dilimdi, din, imanımdı.
Səməndər, tarixdən imtahanımdı.
Qayəmdir, ruhumdur, canıdır bayraq.

## KARONA XƏSTƏLİYİNƏ

Ara elə qarışdı ki, qəfildən,
Olammadıq bir tərəfə çatası.
Çindən qalxıb bu dünyaya yayıldı
Bizə gəlib dəydi axır xatası.

Yaşlı adam girdi evinə qapandı,
Yollar, izlər, üzümüzə qapandı,
Ürəyimiz dərd əlindən tapandı,
Kaş yanardı bu virusun atası.

Bilən yoxdu necə gedir oyunlar,
Meşə xəlvət, qurda yemdi qoyunlar,
Zəncirlənib xaltalanıb boyunlar,
Səlvər qalib neçəsinin xaltası.

Pandemiya alət olub çoxuna,
Ucluq olub siyasətin oxuna.
Dünya düşüb bu dəhşətli axına,
Daha deylik iy qoxudan yatası.

Kimsə açmır nədir görən, sirri nə?
Mat qalmışıq bu əməlin sirrinə,
Göydən bəla? Yerdən əməl? Biri nə?
Kəsib tökür xatakarın baltası.

Erməniylə əlbir olub "karona"
Virus kimi qan uddurur cahana,
Səməndər də düşüb yaman zor ana,
Kimsə tapmır dərdə dərman, qadası.

*30 iyun 2020 Tovuz.*

## PAYIZ

Ad qazandı sərtliyilə,
Necə gəldi gör bu payız.
Gah ağladı, gah da güldü,
Ərkəsöyün körpə payız.

Bir də gördüm gecə yarı,
Toparlayıb buludları,
Düyünləyib yumruqları,
Sellə girdi hərbə payiz.

Qamçısını şaqqıldatdı
Damı-daşı laqqıldatdı!
Kəndi selə, suya qatdı,
Yudu getdi sər-pa payız.

Qəzəblənib döndü cinə,
Doldu dağıtmaq fikrinə,
Şər əlәdi şər üstünə,
Vurdu möhkəm zərbə payız.

Səməndər sən tarixə yaz,
Olmamışdı belə qapaz!
Hamı etdi nəzir, niyaz,
Bəlkə bir az sərpə payız.

*25.10.2023. Yanıqpəyə.*

## ƏFSUS

Bu gecə yanımda qal dedi mənə,
Nəfsimi öldürüb qalmadım, əfsus.
Gəncliyim tüqyana gəldiyi zaman,
Heç dürüst ləzzətin almadım, əfsus.

Alınmaz qalaydı sevgi gözümdə,
Hər cövrə, əzaba vardı dözüm də,
O gecə bir cürət tapıb özümdə,
Özümü qoynuna salmadım, əfsus.

Əllərin titrədi o gün əlimdə,
Ürəyin atəşi söndü dilimdə.
Heç belə əzaba dözməz ölüm də,
Sən Leyli, mən Məcnun olmadım, əfsus.

Getdi vüsal dəmi o gündə qaldı.
Eşq uman zirvəyə həsrət ucaldı.
Bütün xatirələr məndə qocaldı,
Seyrinə doyunca dalmadım, əfsus.

Səməndər, atalar çox gözəl demiş,
Gül qədri biinməz xəzan gəlməmiş.
Gəncliyin özü də bir cənnət imiş,
Bağında dolaşdım yolmadım, əfsus.

*23.10.2022. Yanıqpəyə.*

## BU HƏYAT

Kimi görsən nazü-nemət istəyir,
Elə bilir ağlı kəmdi bu həyat.
Özü bilir hər kəsə nə edirsə,
Göy sındıran bir ötkəmdi bu həyat.

Hər yetənin əllərində gözü var,
Hamı umur özü üçün dövlət-var,
Özü durub var üstündə fırlanar,
Yoxluq üstə hey sitəmdi bu həyat.

Kimlər üçün yaradıbdır süd gölü,
Kimlər üçün başdan başa qəm seli,
Kimlər üçün bir cənnətdi hər teli,
Kimlərəsə cəhənnəmdi bu həyat.

Kimi eldə qiymətiylə yaşayır,
Kimi namus, ismətiylə yaşayır,
Kimi haram sərvətiylə yaşayır,
Kimə dəmdi, kimə qəmdi bu həyat.

Ay Səməndər, yaxşı gəlir gur səsi,
Sonda çəkir imtahana hər kəsi.
Yavaş-yavaş yonub tökür rəndəsi,
Canlar alan şux sənəmdi bu həyat.

*24.10.2022. Yanıqpəyə.*

## GƏTİRSİN

Günəşin örpəyi başından düşüb,
Alıb qanadına külək gətirsin.
Üfüqdən boylanan Tanrı baxışı
Özüylə min arzu, dilək gətirsin.

Ay da güzgüsünü tutsun üzünə,
Nazlana-nazlana baxsın özünə,
Dağın zirvəsindən enib düzünə
Günəş şəfəqindən çələng gətirsin.

Ələsin nurunu bütün bəşərə
Bir ümid işığı verməsin şərə,
Bol sevgi paylasın sevən kəslərə
Qoyub xonçasına mələk gətirsin.

Ayıltsın yuxudan sevən sevəni
Bir süfrə açanı, bir çay süzəni,
Alıb yanağından dadlı busəni,
Düzsün süfrəsinə, çörək gətirsin.

Hər kəsə xoş arzu dilər Səməndər.
Dostlara şad müjdə versin hər səhər.
Günəşin eşqiylə yanan üfüqlər,
Sevgini qəlblərə dirək gətirsin.

*02.04.2024. Qovlar. Yanıqpəyə.*

# MEHRİBAN

Coşa gəlib yenə şair ilhamın
Püflə yansın qoyma sönə, Mehriban.
Söz sənəti pozulmayan naxışdı
Çox bəzək vur dönə-dönə, Mehriban.

Yaz ki, səsin bu aləmə yayılsın,
Qafil olan qoy qəflətdən oyansın.
Hər keçən an ömrə-günə yazılsın,
Nur çiləsin yer üzünə, Mehriban.

Sildırımlı sərt yoxuşlar çıxmısan,
Yamaclardan tər çiçəklər yığmısan.
Altmış yaşın əllərini sıxmısan,
Yüz yaş versin müjdə sənə, Mehriban.

Qarabağda görüşərdik bir kərə,
Şükür tamam azad oldu dağ-dərə.
Kaş hər yerdə toylar ola gənclərə,
Biz də gedək toy-düyünə, Mehriban.

Cəmi dostlar şad günlərə yığılsın,
Qəm-kədərin evi uçub yıxılsın.
Şadlıq sevinc leysan olub yağılsın,
El-obanın hey üstünə, Mehriban.

Yax əlinə toy düyündə xına gəl,
Belə gündə qələmini sına gəl,
Düz deməsə Səməndəri qına gəl,
Razı qalar hər sözünə, Mehriban.

# NAZƏNİN

Başa salıb ağ qanadlı örpəyi
Hara uçdun sərvi nigar, Nazənin.
İlmələyib gözlərimə yolları
Naxış saldı qəlbə qubar, Nazənin.

Durna kimi cilvələndi ağ bədən,
Baxışların dağ oynatdı yerindən.
Çəkib aldın ürəyimi əlimdən
Tutsun səndə daim qərar, Nazənin.

O baxış nə, o qəmzə nə, o səs nə,
Bütün aləm heyran qaldı səsinə.
Bir muğamın, bir segahın bəhsinə,
Getdi tamam canda nə var, Nazənin.

Heyranların dinləməkdən usanmaz,
Ruhu tamam alıb gedər bu avaz.
Rəhmi eylə, gülüm gəl bir az,
Dözənməyib kimsə yanar, Nazənin.

Hər nəğmənlə qanad çaldı küləklər,
Dörd yanında dövrə vurdu mələklər,
Tara dönüb nalə çəkdi Səməndər,
Bir onu da hərdən ara, Nazənin.

## DEMƏK HƏYAT DAVAM EDİR

*Tələbə yoldaşım, şairə Azəri Türksoya*

Sən yazdıqca Qalya xanım:
“Demək, həyat davam edir”.
Boş keçmirsə bircə anım,
Demək, həyat davam edir.

Tər çiçəyin ömrü gödək,
Ləçəyini yolur külək.
Çəmən baxır kövrələrək,
Xəzan vaxtı çıxıb gedir,
Demək, həyat davam edir.

Hər tərəfə çatır soraq,
Qoca gəlir saqqalı ağ.
Əldə əlcək, başda papaq,
Körpələri arıyaraq
Əldə kisə pay gətirir,
Demək, həyat davam edir”.

Sərt olsa da qış nəfəsi,
Kəsilməyir nəğmə səsi.
Hər bir kəsin var həvəsi,
Babaların qız nəvəsi
Süfrələrə çay gətirir,
Demək, həyat davam edir.

Əcəl ömrü bölən yerdə,
Üstümüzə gələn yerdə,
Min bir ümid gələn yerdə,
Qəm çəkilir, üzlər gülür,

Toya, şana dəvət gəlir,
Demək, həyat davam edir.

Nə qədər ki, qış qarlayır,
Nə qədər ki, gün parlayır,
Bəhməz bişir, bal xarlayır,
Aşıq yarın haraylayır,
Bir ağsaqqal gülüb deyir:
-Demək, həyat davam edir.

Ay Səməndər, bax beləcə,
Dövr eyləyir gündüz, gecə,
Həyat özü xoş əyləncə,
Hər kəs gəlib seyr eləyir,
Sonra bir-bir çıxıb gedir,
Demək, həyat davam edir.
Demək, həyat davam edir.

## ŞÜKÜR

Dünya karvan, mayası çox
Təkəm – seyrək nərə şükür.
Həyat özü nərd oyunu,
Qoşa düşən zərə şükür.

Xoş gün üçün dedik, heyhat
Papağını sən göyə at.
Başladı fırlat ha fırlat.
Biri düşsə yerə şükür.

Papaq üçün baş qalmadı,
Uçdu qala, daş qalmadı.

Şükür dünya boş qalmadı,
Meydandakı ərə şükür.

Həyat dedik, namərdi çox
Çox daşladıq namərdi, çox...
Bəs hardadı o mərdi çox...?
Düşməyibsə şərə, şükür.

Meyyar tamam itib nədi,
Yaxşı nədi, yaman nədi?
Ay Səməndər numunədi,
Halal zəhmət, tərə şükür.

*20.10.2024.*

Bu yer nədi, bu göy nədi, biz kimik?
Gen dünyaya səs-sorağın olaydım.
Yağış kimi dağlarına ələnib,
Yerə hopub saf bulağın olaydım.

## KÖKÜ KƏSİLMƏZ

Millətin kökləri çox dərindədi
Min illərlə qazsan kökü kəsilməz.
Tarix yazammayıb tarix yaratdı,
Kim hara səhf yazsa, kökü kəsilməz.

Tanrı itirməyib yaratdığını,
Nə bir dərəsini, nə bir dağını,
Ağac dəyişsə də öz yarpağını,
Dözər gələn yaza kökü kəsilməz.

Heç də az olmayıb qanlı döyüşlər,
Dağılıb ölkələr, yanıb şəhərlər.
Qalxıb şəhər salıb yenə də türklər,
Keçirib min qəza kökü kəsilməz.

Bəd-güman olma gəl, a Namiq qardaş,
Tarixdə türklərə çox atılıb daş.
Yenə daş altından qaldırıbdı baş,
Möhkəmsə bir əza kökü kəsilməz.

## QAZAN

Qayna qazan, kükrə qazan, coş qazan,
Sən coşduqca ocaq gülür, gül açır.
Yemək ətri bihuş edir dostları,
Hər sifətdə neçə-neçə gül açır.

Köhlən atlar şahə qalxıb kişnəyir,
Qayalarda kəklik susub dinşəyir,
Qartal hara qonduğunu bilməyir,
O, qaynamaq həvəsinə dil açır.

Hər kəs alıb qaşığını dəstinə,
Necə əldən əl uzadır üstünə,
Səməndəri həsrət qoyma istinə,
Bir çömçə də qivamiyə əl açır.

*31.10.2024.*

## MƏZUN 78-İN QRUP ÜZVLƏRİNƏ

Qrupumuz parıldayam bir aydı
Üzərində xal kimidi Qəhrəman.
Nə bulaqdı, nə çeşmədi, nə çaydı
Hər görüşdə bal kimidi Qəhrəman.

Tezdən durub ilkin açır səhəri,
Danışmır ki, ayıltmasın şəhəri,
Asta qoyur mesajlara yəhəri,
Tip-tip səsli nal kimidi Qəhrəman.

Çox danışıb, goplamaqla işi yox,
Söz dağıdıb, toplamaqla işi yox.
Ay Səməndər, belə ballı kişi yox
Xırman üstə sal kimidi Qəhrəman.

## DÜNYA BİZƏ NEYLƏDİ Kİ?

Giley-güzar başdan aşır,
Dünya bizə neylədi ki?
Ağız əylir, dil dolaşır,
Dünya bizə neylədi ki?

Yer yatmadı, göy çökmədi,
Dünya, saray mülk sökmədi.
Dağ ucaltdı, dağ çəkmədi,
Dünya bizə neylədi ki?

Yeyib içib, düşən xəstə,
Uduzanlar bəshabəsdə,
Söyləyirlər son nəfəsdə,
Dünya bizə neylədi ki?

Dünya mənim, deyən kəslər,
Qan-qadayla yazır əsər,
Haqq yolundan dönən bəşər,
Dünya bizə neylədi ki?

Kimi kəsir, çalır, çapır,
Kimi əldən qismət qapır,
Şeytanlığı insan yapır,
Dünya bizə neylədi ki?

At önünə əti atdıq,
İtinə də duz yalatdıq,
Hər xeyirə nifaq qatdıq,
Dünya bizə neylədi ki?

Əldə tutub yol daşını,
Dost dağıdır dost başını,
Qardaş kəsir qardaşını,
Dünya bizə neylədi ki?

Əməllərin qanı qara.
Rəngi çöküb buludlara,
Yağsa dönər tarımara.
Dünya bizə neylədi ki?

Sevən hər kəs, ay Səməndər
Bu dünyanı eşqlə sevər.
A dünyanı söyən kəslər,
Dünya bizə neylədi ki?

*19.02.2020.*

## OD TUTA, OD TUTA

Şuşa deyə bağırıram
Dilim odlana-odlana.
Qarabağda külə döndü
Elim odlana-odlana.

O ATƏT-in də nə vecinə,
Od düşüb kimin içinə,
Qəm dolur qəmin içinə,
Neynim odlana-odlana.

BMT-nin üzü dönüb,
Çırağı çoxdandı sönüb,
Milyon dəfə qalxıb, enib,
Əlim odlana-odlana.

Məmurların yükü ağır,
Daşımaqdan bellər yağır.
Ürəyimdən qanlar axır,
Selim odlana-odlana.

Bir yanda dəm, bir yanda qəm,
Heç olarmı belə sitəm,
Hey çəksəm də dinənmirəm
Zülüm odlana-odlana.

Gəl, həsrətlim qucaqlaşaq,
Hönkür-hönkür bir ağlaşaq.
Bu möhlətlə uzaqlaşaq,
Qalım, odlana-odlana.

Ay Səməndər, belə-belə,
Ümidim var bir az hələ.
Tanrım, qoyma bu dərd ilə
Ölüm odlana-odlana.

*13.09.1995.*

## GƏNCLİK ŞEİRLƏRİ

Vüsalına yetəmmirəm,
Zalım, odlana-odlana.
Yeri-göyü kül eylədi
Halım odlana-odlana.

Gecə zülmət saçın kimi,
Hey qıy çəkir lacin kimi,
Bir maç yoxdu, maçın kimi,
Alım odlana-odlana.

Sinən tamam bir xəzinə,
Razı ol düşüm izinə,
Getsin o ayın üzünə
Yolum odlana-odlana.

Qara gözlər durub qəsdə,
Sağ canımı edib xəstə,
Aç qolunu sinən üstə
Qalım odlana-odlana.

Səməndəri gənc çağında,
Yandır, ərit ocağında.
Yavaş-yavaş qucağında
Ölüm odlana-odlana.

*03.05.1977.*

# XOŞ GÜNLƏRİ İLDƏN İLƏ APARIM

A bacılar, a qardaşlar, a dostlar,
Hey gül açsın qəlbinizdə arzular.
Ətir saçsın kaş daima qış, bahar,
Yığın  gülü güldən-gülə aparın.
Xoş günləri ildən-ilə aparın.

Qəm çökməsin heç bir zaman üzlərə,
Çisgin, duman bələnməsin gözlərə.
Taqətsizlik gələmməsin dizlərə,
Yaşı yüzə daim belə aparın,
Xoş günləri ildən-ilə aparın.

Sağlıq yüklü karvan olsun dəvələr,
Sizlər üçün, ay babalar, nənələr.
Dağ görməsin, dağa dönsün nəvələr.
Toy-düyündən vurun şələ aparın
Zir-zibili atın selə aparın.

Ağrı-acı kaş qalmasın canda heç,
Heç olmasın belə zaman, anda heç,
Bəd nə varsa qoy axmasın qanda heç,
Az-maz olsa verin yola aparın.
Xoş günləri ildən-ilə aparın.

Yerə salın dildən “ahı...” “uf...”ları,
Tapdalayın gileyləri “of”ları,
Yadırgayın bir dəfəlik xofları,
Pozulmasın sıranızın şəfləri,
Bu nizamı gülə-gülə aparın.
Xoş günləri ildən-ilə aparın.

Göyə uçsun hər nə varsa qan-qada,
Yerə hopsun bu qovqalar dünyada.
Ay Səməndər, gələmməsin heç yada,
Ortalıqdan atın belə aparın
Xoş günləri ildən-ilə aparın.

*03.06.2024. Qovlar.*

## APARSIN

Uşaqlıq illərim qayıtsın geri,
Yadımda nələrsə qalıb, aparsın.
Acılı-şirinli xatirələrimi,
Məktəb çantasına salıb aparsın.

Tər-təmiz eyləsin qəmi-qübarı,
Qalmasın ilk eşqin xaş əzabları.
Cəmi ötən anı, ötən çağları
Ömür lövhəsindən silib aparsın.

Bir az kövrək olum, xatalı olum,
Qarğı at minməyə çatalı olum.
Atalı-analı yenidən olum,
Qalan nəyim varsa çalıb aparsın.

Bir uşaq qəlbiylə açım səhəri,
Yamacdan yamaca çapım kəhəri,
İyləyim, qoxlayım tər çiçəkləri,
Hansısa saralıb, solub aparsın.

Səməndər görməsin paxıllıq, nə kin,
Rəzilət sayılan var isə nəkin.
İşini bacaran bir bağban təkin.
Bütün məmləkətdən yolub aparsın.

*02.11.2024.*

# HƏLAK ETDİ

Məkana çatmamış durna qatarı
Laçın pərən saldı, sar həlak etdi.
Kimsi düzə qondu, kimsi dağlara,
Ovçu həlak etdi, qar həlak etdi.

Bir ömrün əksidi durna qatarı,
Həmişə can atır məkana sarı,
Canından çox sevir dövləti, varı,
Axırda deyirlər, var həlak etdi.

Zəmanə bir oddu taleyi kəmlər,
Barmaqlıq içində çəkir sitəmlər,
Gətirmir dilinə sevib-sevənlər
Eşq sitəm eylədi, yar həlak etdi.

Bilinmir kim necə yazır cümləni,
Hər ömür müxtəlif qoyur nöqtəni.
Kiminin sonluğu bahar gülşəni,
Kimini qar, boran, tar həlak etdi.

Səməndər, yaranan əcəl əlində,
Min dürlü yalana olur bəhanə.
Kiminin gül düşür göydən üstünə,
Kimini bir dənə nar həlak etdi.

*25.10.2024. Qovlar.*

* * *

Üzünüzə hər bir səhər
Xoş açılsın gülsün belə.
Durub evdən çıxan zaman
Yola salsın gülə-gülə.

* * *

Keçən anlar dəqiqələr,
Ən qiymətli ləlü, kövhər,
Rəvan getsin bütün işlər
Nə zaman ki, aldız ələ.

Deyin, gülün bu minvalla,
Gün dolansın bala-bala.
Şadlıq ilə toy-bayramla
Kef eyləyin evdə hələ.

Qarşılayın tez səhəri,
Şad keçirin hər günləri,
Sevindirin könülləri
Gündən-günə, ildən-ilə.

Ömür keçsin toy-düyündə
Belə anda-belə gündə,
Səməndərin söz dilində
Ətir saçsın eldən-elə.

## AÇACAQ

Ayın şəfəqindən hamilə gecə
Cahana nur səpən günəş doğacaq.
Dağların başından mujdə gətirən
Şəfəq dan yerindən gəlib çıxacaq.

Günəşin ilk nuru açıb qanadı
Dolanıb gəzəcək bütün elatı.
Təbiət yığacaq barı-baratı,
Hər kəsin qəlbinə nur paylayacaq.

Yeni söz düşəcək şair dilinə
Arzular kəmərin taxıb belinə.
Xoşbəxtlik sığalın çəkib telinə
Könüllər mülkünə qanad açacaq.

Üzlərdə dolaşıb sevinc, təbəssüm,
Canda qərar tutub, mətanət dözüm,
Arzular, diləklər hey çözüm-çözüm
Dərgah qapısına ayaq açacaq.

Qədəmi xoş gəlsin belə səhərin,
Ömrünüz şən keçsin, dostlar, sizlərin.
Ocaq sizinkidi, köz Səməndərin
Qalayın odunu siz qucaq-qucaq.

## ŞƏHİDLİK

Bu torpaq yoğrulub Şəhid qanından,
Müqəddəs Məkkəyə, Kəbəyə dönüb.
Hər yanda çiçəklər lalələr açıb,
Yal-yamac, əl-əlvan gəbəyə dönüb.

Şəhidlik önündə yer dilə gəldi,
Göylər od püskürdü alov ələdi.
Qan içən düşməni qana bələdi
"İt qovan" dronlar bələyə dönüb.

Bu Vətən torpağını hər addım başı
Heykələ döndərdi ölüm savaşı.
"İntiqam!" deyərək düşmənə qarşı
Xaraba evlər də tələyə dönüb.

Doğma daş-qayada əsgər sayağı
Siplərə çevrilib döyüş qabağı.
Azad etmək üçün ana torpağı
Yenilməz bir gücə, qüvvəyə dönüb.

Azad oldu Laçın, Şuşa, Kəlbəcər,
Dağlara yenidən doğdu şəfəqlər,
Sevincdən az qala uça Səməndər
Tovuzdan Murova küləyə dönüb.

*25.10.2020. Tovuz.*

## OĞLUM

Yağı düşmənlə doludu
Bütün sağın-solun, oğlum
Qoyma əldən silahını
Açıq olsun yolun, oğlum.

Bir eşq vardır, bir də Vətən,
Bil,namərddir ondan dönən.
Bu birliyə varsa sinən,
Güclü olsun qolun, oğlum.

Əzin, tökün namərdləri.
Baxmasınlar bir də bəri.
Qartal kimi zirvələri
Yuva edib qonun, oğlum.

Dağlar sizə arxa, dayaq,
Dayanıblar sipər sayaq.
Siz də ona asıb qulaq,
Daş-qayası olun, oğlum.

Səməndərə meydan açın,
Azad olsun Şuşa, Laçın,
Günəş kimi şəfəq saçın,
Bulud kimi dolun, oğlum.

*24.10.2020. Tovuz.*

## OLSUN

Gülərlə Eltonun toyudu bu gün.
Ürəkdən diləyək mübarək olsun.
Söylənən sağlıqlar, arzu diləklər.
Dərgaha tez çatan bir külək olsun.

Eşitsin səsləri haqqın qulağı,
Qaynayıb sel olsun sevgi bulağı,
Yayılsın dörd yana səsi-sorağı,
Yolları ətirli gül-çiçək olsun.

Özünü dərk etsin sevən-sevəndə,
Üzüntü-sıxıntı olmasın nə də.
Eşqin çırpıntısı iki bədəndə,
Qoy iki bədəndə bir ürək olsun.

Bizim fövgümüzdə varsa həqiqət
O da Səməndəri eşidər, həlbət.
Cəmi ailələrdə ruzi-bərəkət
Bir də sevgi adlı bir mələk olsun.

*12.03.2022. Tovuz.*

# SEÇİR

Bu cənnəti, cəhənnəmi,
Vallah hər kəs özü seçir.
Kimi sevir gül-çiçəyi,
Kimi odu-közü seçir.

Kim cəhənnəm küləyindən.
Kim cənnətin mələyindən.
Kim iblisin kələyindən
Olan yolu izi seçir.

Doğru daim  haqq çağırır
Oğru daha bərk bağırır.
Tanrı özü göydən baxır,
Bilir hansı üzü seçir.

Qarşıdadır qəza-qədər,
Ömür elə ora qədər,
Sırat körpüsü sap qədər
Görən kimin gözü seçir.

Ay Səməndər, göstər hanı
Xatırlayan imtahanı
Cənnəti imkan olanı,
Cəhənnəmi yüzü seçir.

*24.10.2024. Tovuz.*

## BELƏCƏ

Məndən buruq gəzən gözəl,
Gəl dolanma, az, beləcə.
Zimistan da ötüb keçər
Yenə gələr yaz beləcə.

Ara pozuq, düzələr də
Bir adətdi gözəllərdə,
Qəlbi alıb üzərlər də
Eyləyərək naz beləcə.

Neçə vaxtı gözüm səndə,
Cəza səndə, dözüm məndə.
Səməndəri öldürsən də
Keçməz səndən vaz beləcə.

*02.05.1976. Gəncə şəhəri.*

## GƏNCLİK İLLƏRİNƏ AİD ŞEİR. “GÜLÜSTAN” POEMASINA

Bir yanda fars, bir yanda rus,
Hökm eyləyir danışma, sus!
Öz içimdə özüm məhbus
Gəlmir dərdim dilə, insan.

İçimdəki aram hanı?
Mən birəmsə, param hanı?
Parçalanmış yaram hanı?
Bir arayıb, bilə insan.

Qardaş qardaşı tanımır,
Rusca, farsca edir "gır-gır",
Yadlar yeyir xımır-xımır
Yanıb dönür külə insan.

Götürmədi saf vicdanı,
Bəxtiyar yazdı dastanı,
Yaydı xalqa "Gülüstanı",
Dedi: - Ayıl, kölə insan!

Haqq sözlərə mırıldadıq,
Yad üzlərə hırıldadıq.
Qarğa kimi qırıldadıq,
Heç olarmı belə insan.

Özümüzü unutmuşuq,
Beynimizi qurutmuşuq,
İçində yad yaşatmışıq,
Qurub bizə tələ insan.

Yer eşirik qarışqa tək,
Qarışqalar bizdən zirək.
Kom yaşayır birləşərək,
Birləşmirik hələ, insan.

Səməndəri gəl belə gör,
Ya qul zənn et, ya kölə gör.
Çox düşəcik, bax, hələ gör
Necə coşqun selə, insan.

*24.08.1976. Gəncə şəhəri.*

* * *

A qardaşlar, bacılar,
Cuşə gəlsin arzular,
Üstünüzə gün doğsun,
Ətir saçsın duyğular.

Ömrünüzə heç zaman
Kaş girməyə zimistan.
Sərt küləklər əsməsin
Qəlbimizdə bircə an.

* * *

Həmişə xoş üzlə açsın səhəri,
Sevinc qəlbinizdə bir ümman olsun.
Kədəri, qüssəni alsın küləklər,
Gözlərdə nə ciskin, nə duman olsun.

Güllərlə bəzənsin bütün yer üzü,
Sevgi birləşdirsin, gecə-gündüzü.
Hər kəsin qəlbində bu eşq dənizi,
Ömür-gün üstündə kəhkəşan olsun.

Boynu bükük qalsın şəri, xatanı,
Vaxtsız önə çıxıb üzməsin canı.
Pambıqla baş kəssin gələn zamanı,
Əlində nə xəncər, nə də qan olsun.

Qəlblərdən qəlblərə yol pozulmasın,
Xoşbəxtlik çəkdiyi qol pozulmasın,
Həyat şirələnsin, bal pozulmasın
Tanrı da bizləri qoy duyan olsun.

Ürəkdə qalmasın arzu, diləklər,
Aparsın dərgaha huri-mələklər.
Dostları şad-xürrəm görsün Səməndər
Qoy nə qəm çəksin, nə pərişan olsun.

*18.06.2023. Yanıqpəyə.*

## SABAHINIZ XEYİR

Ay yatanlar oyanın,
Tez səsimə hay verin.
Səhər çoxdan açılıb
Süfrələrə çay verin.

Hər yanı gül bəzəsin,
Düzün tərin təzəsin.
Sevgi, şadlıq nəfəsin
Təki ona tay verin.

Gözlər gözdən gül alsın,
Qəlblər qəlbdən dil alsın.
Qaş-qabaqlıq olmasın,
Bir təbəssüm pay verin.

* * *

Həyat nəbzini heç kəsə verməz
Gedişi bilinməz, sirri bilinməz.
Gərək ki, bir azca əyyar olasan,
Əyyarlı insanın izi silinməz.

Həyatda insanlar şərab kimidi,
Kimi onun üzü, kimi dibidi.
Kimisi məstdi, kimisi sərməst,
Fərqini göstərən yalnız cibidi.

Həmişə qırağa qoyub papağı,
Başını əyməsə şərab aşağı,
Gəzib əldən-ələ başa çıxammaz
Əyilmək öyrədir başa çıxmağı.

*24.08.2024. Qovlar.*

* * *

Danış Qalya, danış Mehri,
Bu dünyanın nədir mehri?
Ummanlardan dərsin alıb,
Coşub-daşsın sənət nəhri.

Söz oyatsın hamımızı,
Xoş etsin əhvalımızı.
Şeyriyyətdən pay götürək,
Ələ alıb camımızı.

Hay edək, haya düşək,
Gəl axaq çaya düşək.
Yol olaq ümmana biz,
Bəlkə bir saya düşək.

Meydana çək söz atını,
Silkələ göyün qatını.
Ulduzlardan çələng bağla.
Xoş eylə dost ovqatını.

Düzə düz de, əyilməsin,
Qoy düz olan qəddi kəssin.
Əyri gələn, əyri gedər,
Düz olanı haqq əyməsin.

* * *

Ay yatanlar, tez qalxın,
Tanrı sizə yar olsun.
Arzu, istək nəyiz var,
Dərgaha çatar olsun.

Daim vhatsap izləyək,
Xoş diləklər gözləyək.
Gözəl-gözəl söz deyək
Dillərimiz var olsun.

Dinməyən çox, dinən az,
Hamı elə yaz ha yaz,
Kimi dərin, kim dayaz.
Ay Səməndər, sən də yaz:
-Dosta salamlar olsun.

* * *

Hər vaxtınız xeyir olsun,  bacılar,
Heç görməsin taleyiniz acılar.
Bu dünyada xoş günlərə yetməsin
Hər kəs sizi ovqatsızlar, acılar.

Günəş qalxıb başım üstə dayanıb,
Ülfətindən cümlə cahan oyanıb,
Deyirəm ki, dostlarımın əhvalı
Bir coşaydı şeiriyyətə boyanıb.

* * *

Tək gəzər hansı gözəl
Cüt gəlir, hansı gözəl?
Nə gözəl! Söz oxuyur,
Bilmirəm hansı gözəl.

A gözəl sözlü gözəl
A gözəl sözlü gözəl
Qoy mən də bir söz deyim,
Qalmayım sözlü, gözəl.

Əzizim, qalmaz ki belə,
Əzizim qalmaz ki belə.
Sən getdin aləm getdi
Əzizim, qalmaz ki, belə.

Nə gözəl, söz məclisi,
Nə, gözəl söz məclisi?
Ürəksiz qura bilməz
Nə göz, əl, söz məclisi.

Gülüm, harayla mən gəlim?
Günlə, hər ayla mən gəlim,
Heç eşidib bilənmməsən,
Günlə, hər ayla, mən gəlim.

A Gülsabah, özün say,
Özün dara, özün say
Başda tük ulduz qədər,
Keçəldisə, özün say.

* * *

Ömrə güllər açan gülləriniz var olsun,
Əli güllərlə gələn günləriniz var olsun.
Günü gül ətri ilə ömrünüzə ox eləyın,
Allahla bəxt arası əlləriniz var olsun.

Tanrıdan bir pay olsun sizlərə dostlar
Ruzulu, bərəkətli, nurlu sabahlar
Xoş durub, xoş dolanın ömrü boyunca
Dostluğa xoş dayaqdır sağlam olanlar.

## BAYATI

Əzizim, dağlar qalsın,
Qar getsin, dağlar qalsın,
Düşmənin beli sınsın,
Sinəsi dağlar qalsın.

Könül xəznə, söz inci,
Gəl bir bölək sevinci,
Gözlə, bir ay geciksəm,
Nə küs məndən, nə inci.

Əzizinəm sənindi
Dön gəncliyə sən indi.
Nə arzun var Tanrıdan,
İstə, ay qız, sənindi.

Əzizinəm, Tamara,
Ağzı şirin tam ara.
Səhər, axşam dostları,
Yaxşı axtar, tam ara.

Vermə sözə, dost, ara,
Ləkə düşməz dost ara.
Uzaqda dost gəzincə,
Qurupda gəl dost ara.

Ay Mehriban səf düşmə,
Düz atlanıb səf düşmə.
Mən meydandan qaçmaram.
Ola bilər səf düşmə.

* * *

Avazın xoş, sözün də xoş,
Hərarət var, sözündə xoş.
Düşüncə saf-təmiz olsa,
Qanad açar sözündə xoş.

Yer var göyün qanadında,
Göy var yerin hər qatında.
Dolanır eşq gümanında,
Dünən də xoş, bu gün də xoş.

Göyə baxdım məndən uzaq,
Yer də məndən gendən uzaq.
Ömür keçir saxta, sazaq,
Keçmədi heç bir gün də xoş.

Dadı dilim, dilim dadı,
Ahın tökdüm dilim dadı
Bu nə fəryad, bu nə dadıdı,
Bu ah da xoş, bu un də xoş.

Eşq var isə, cəfa da var
Nə dad desən, cəfada var.
Tabın varsa, cəfa da var,
Yolun da xoş, izin də xoş.

Bəlayi eşq nə dərdimdi,
Nə günahım, nə dərdimdi.
Nə becərdim, nə dərdim di.
Düzən də xoş, üzən də xoş.

Elə ki, eşqə inandım,
Yanaşdıqca alovlandım.
Səməndərə ünvanladım
Alovum da, közüm də xoş.

* * *

Kömək olsun yeri göyü yaradan
Hər an sizə, a qardaşlar, bacılar.
Ötən axşam, gələn səhər, açan dan,
Heç verməsin gözünüzə acılar.

## KRUQ 78-İN ÜZVLƏRİNƏ

Mehriban ocaqdı, Qalyasa qazan,
Ocaq alışdıqca qaynayır o an.
Gülsabah ocaqda kosovə bənzər.
Ocaq da enerji götürür ondan.

Ofelya özü də Mahir ocaqçı
Odun daşıyandı Mədinə bacı.
Mülkuysə daim ocaq üfürür
Yalnız ona çatır bəlkə əlacı.

Tahir də görünür aşpaz ədası,
Sahibin gəlməyir səsi-sədası.
Hərdən Əhmədov Notlar yöndərir,
Baş açmaq çətindi ondan, qadası.

Ocaqda uzaqdan durub isinən,
Mahirədi hərdən odun göndərən.
Qazanın yanında o Tamaradı,
Əlində saz sayaq çömçə görünən.

Yığılıb dövrəyə baş-başa qızlar
Edirlər ocağa tamaşa qızlar.
Görüm bu hal ilə, bu minval ilə,
Ləzzətlə yetişə yüz yaşa qızlar.

Qəhrəman qrupda ucaldıb oda,
Sona tez-tez durub neft atır oda.
Nuriyyə, Solmazla közə bənzəyir.
İradə ruh verir ocağa oda.

Ay Tamara, gəl sən məndən incimə
Ləl ələdin, dürr bəzədin incimə
Tez-tez qoşul deyək, gülək nə olar
Qoy olmasın ortalıqda incimə.

## GÖRÜM

Halal haram bir-birinə qarışıb
At çaparaq meydanlaşıb, yarışıb.
Ağlaşıblar, qucaqlaşıb, sarışıb
Zirəksənsə ayır görüm, seç görüm.

Halal duru bulaq kimi qaynayır,
Haram coşqun selə dönüb çağlayır.
İplərini iblis dartır, bağlayır
Ayrı-ayrı üzlərindən keç görüm.

Qarışıbdı xislətində millətin
Ayırd etmək bu zamanda çox çətin.
Ay Səməndər, daxilində xilqətin
Nə baş verir bilirsənmi heş görüm?

*09.10.2024.*

* * *

Qalya qazan yandı, ey...!
Yaman coşub daşır hey
Qazan, qazan yerində
Yemək bir az yandı ey...

Ay Mülku tez çat üfür,
Xəngəl yaman tez köpür.
Bir harayla çömçəni,
Tapanmasan bir kökür.

Qızlar yorğun düşüblər,
Xəngəl yeyib, şişiblər,
Çox çəkiblər zəhməti.
Od-alovda bişiblər.

Dincəlsinlər qoy bir az,
Həmi artsın say bir az.
Qalya xəngəl bişirir,
Göndərəcək pay bir az.

Sarımsaqlı qatıq tök
Qonşularda satdıq yox.
Bazara adam gedib,
Edib atıq-atıq, yox.

A qazan, qayna, qazan
Od səni qayna qazan.
Dızlama boş-boşuna,
Coş, kükrə, oyna qazan.

* * *

Yaşı-yaşa vurdunmu?
Sayıb boşa vurdunmu?
Bu say o saydan deyil
Çaşa-çaşa durdunmu?

A Mehriban özün say,
Özün götür, özün say,
Bu qrupun anası
Hər bir zaman özün say.

Ay Ofelya, üşümə,
Hava soyuq, üşümə
Hər an kefin kök olsun,
Can tutmasın üşümə.

Qulaq asın biz deyək,
Yaxşılara, biz deyək
Yaman könlü qırmayaq,
Yaxşılığa biz dəyək.

Ay susanlar, bir dinin,
Bir danışın, bir dinin
Biz ki, ögey deyilik,
Övladıyıq bir dinin.

* * *

Dilindəki dilək mənim
Sinəndəki ürək mənim.
Bu ülfəti daşımağa
Möhkəm ciyin, kürək mənim.

Nə gözəl, gül ülfəti,
Bəzəyir gül ülfəti,
Qızlar bağcaya girib,
Hər biri gül ülfəti.

Bu səhər yarnan gəlib,
Əli dolu varnan gəlib.
Salıbdır ağ dəsmalın,
Qəlbi nübarnan gəlib.

Bu səhər qarlı səhər,
Aşnalı, yarlı səhər,
Geyinib ağ libasın
Olasız varlı səhər.

Əzizinəm səhər olsun
Gecə ötsün, səhər olsun.
Hər arzu istəyiniz
Gül açsın, səhər olsun.

Ay Qrupun anası,
Səni gəzir sonası.
Oğlanların bacısı,
Gözəllərin anası.

* * *

Çoxdan durub xoruz kişi
Hey qışqırır, qalxın deyə.
Qalxın edin siz gərdişi,
Adam yatar de indiyə?

Yatsanız da bax özünüz
Qoy bəxtiniz oyaq olsun.
Hər gecəmiz-gündüzümüz
Sağlam ömrə dayaq olsun.

* * *

Qazan, qazan axtarır,
Qazan yazan axtarır.
Yazan ozan axtarır.
Ozan qoyub işini
Çayda sazan axtarır.

Qazan girsin meydana,
Göstərsin ocaq hana.
Əgər tapa bilməsə
Çömçə qaçsın dörd yana.

Çəkmişəm xəngəlimi,
Atmışam çəngəlimi,
Girişib hey yeyirəm,
Tam edib əllərimi.

Coşə gəlib arzular
Silkələnsin, a dostlar.
Qəlbinizin telini
Hər səhərlər, axşamlar.

Səhər oyatsın sizi
Qəlbdə sevinc dənizi.
Xoş ovqatla keçirin
Axşamları, gündüzü.

* * *

Ay hörmətli bacılar və qardaşlar,
Çiçəklənsin qəlbinizdə arzular.
Kaş qəlbiniz şaxta, boran görməsin,
Daim olsun qəlbinizdə xoş bahar.

Bir arzum var əziz dostlar sizlərə,
Qəm çökməsin vaxtsız gəlib üzlərə.
Sağlam canla, dik vüqarla ömr edin,
Ah...of edib inləməyin bir kərə.

Şadlıq yüklü karvan olsun dəvələr,
Hey daşısın sizin üçün xoş nəmər,
Oğul, qızdan ləzzət duysun qəlbiniz
Hey calansın xoş günlərə, xoş günlər.

* * *

A Qalya, Qalya, Qalya,
İş başında gəl, qal...ya,
Qazan kimi qayna, coş,
Ocağı qalaya-qalaya.

Hanı ocaq gec yandı,
Hamı qalxdı, oyandı.
Əlim əsdi soyuqdan,
Saqqalda buz dayandı.

İşıq yanmır, coşma gəl,
Aradan tez qaçma gəl,
Bayatı de, şeir qoş.
Bəhanələr qoşma, gəl.

Eybi yoxdu gec olsun,
Xəta-bəla heç olsun,
İşığınız gur yansın,
Sözlərində güc olsun.

Həyatda sən gülmüsən?
Gül deyəndə gülmüsən.
Arzum budur vaxtında
Ağladanda gülümsən.

Hardan alırsan görəsən.
Bu qədər sözləri sən?
Atırsan ehsan edib,
Qəlblərə közləri sən.

Arzumdur gur yanasan,
Gün-gündən gurlanasan.
Günəşə boy qaldırıb,
Onun tək nurlanasan.

Nə zamandan, Mehri sən
Seyrə saldın mehri sən-?
Şərbət tək paylayırsan
Nimçələrdə mehri sən.

# OLAYDIM

Bu yer nədi, bu göy nədi, biz kimik?
Gen dünyaya səs-sorağın olaydım.
Yağış kimi dağlarına ələnib,
Yerə hopub saf bulağın olaydım.

Əlim çatmır əllərinə, Qarabağ,
Bulud çöküb ellərinə, Qarabağ,
Qarışaraq sellərinə Qarabağ,
Bircə ovuc kaş torpağın olaydım.

Qoruyaydım hər qarışı canımla,
Suvaraydım gül-çiçəyi qanımla,
Çilənəydim hər yamaca bir damla,
Hər ağacda yaz yarpağın olaydım.

Bu dünyada timsalıydın cənnətin,
Şiş dağların heykəliydi qeyrətin,
Sənə layiq söz deməyim çox çətin,
Sözlə yanan gür ocağın olaydım.

Düşmən qəddar, sinən tapdaq, mən aciz,
Qılıncım korş, qolum gücsüz gərəksiz,
Yaşayarmı de, Səməndər diləksiz
Zəfər günü mən bayrağın olaydım.

*25.09.1993. Tovuz.*

* * *

Dağ vüqarlı qardaşlar,
Gül yanaqlı bacılar,
Üzünüzə gün doğsun,
Hər açılan sabahlar.

Dostlar daim sağ olsun,
Hər yan güllü bağ olsun.
Qalxıb körpə nəvələr
Arxanızda dağ olsun.

* * *

Süfrə boşdu yeməyi yox,
Qazan bizdən nə istəyir?
Məclisi yox, meydanı dar,
Ortada toz duman qopar,
Çömçə gəlsə bəlkə dolar,
Ozan bizdən nə istəyir.

* * *

Dostlar sizdən bir xahişim,
Dilinizi işə salın.
Barmaqları dayandırın,
Sözlə gəlin meşə salın.

Valeh edib hər bir kəsi,
Bu dünyanın pəncərəsi.
Dağınıqdı yan-yörəsi,
Gözlərinə şüşə salın.

Zaman keçir sərt yolları,
Yırtılmaqda çarığları.
Səməndərlə gəlin barı
İlgəyinə köşə salın.

* * *

Səsin gəlsin, ay Tamara,
Gözlə, gedək axşamlara.
İşlə günü yola verək,
Sözlə gedək axşamlara.

Günümüzü xoş keçirək,
Bir azca meyxoş keçirək,
Yığılışıb deyək, gülək,
Sazla gedək axşamlara.

Gül çiçəklə deyiş bir az,
Gəraylı de, bayatı yaz.
Gül çiçəyə eyləsin naz
Nazla gedək axşamlara.

Ocaq yansın şölələnsin,
Cəmi dostlar görüb gəlsin,
Şən nəğməylə dövrələnsin,
Sizlə gedək axşamlara.

Səməndər haqdan diləyər,
Qəbulumdu hər nə verər,
Ürəklərə arzu qədər
Közlə gedək axşamlara.

* * *

Oğrusanmı bir de hələ?
Oğurlama qəlbi belə.
Sənin kimi bir gözələ
Niyə gözəl söz deməyim?

Ay gözəlim, dinlə hələ,
Qəlbimdə söz gilə-gilə,
Hey can atır dilə gələ
Çalışıram söz deməyim.

Səməndəri işə salma
Möhnət əkib, meşə salma,
Çətənəyəm dişə salma,
Necə götür, biz, deməyim.

*12.01.2024. Tovuz. Qovlar.*

## OLUB

Hava tökül qaş qabağın,
Elə bilki yarı ölüb.
Hey hönkürür axşam sabah,
Yarı xəstə yarı ölüb.

Qarı gəlib çıxıb maya,
Əlində bir yekə paya.
Hamını tutub zopaya,
Bə deyirlər qarı ölüb?

Gel sularla may da çıxır,
Bir üstəlik pay da çıxır.
Yağış yuyur dolu sıxır,
Kəndin bağça barı olub.

Nə utanır nə qızarır,
Əlində keçəni aparır,
Gör necə tufan qoparır,
Namus qeyrət arı ölüb.

Yerlər yorğun göylər səsdə.
Topa bulud duruüb qəsdə.
Səməndərlə bəsə-bəsdə,
Qutaraydı barı ölüb.

*15.05.2025, Yanıqpəyə*

## BELƏ

Təbiət ovucunda saxlasın sizi,
Həmişə güləsiz həmişə belə.
Bülbül tək çəmənə qonan könlünüz,
Düşməsin höyüşə nəmişə belə.

Daim xeyirə şərə yarayın,
Xəstə könüllərə məlhəm sarıyın,
İmkan olsun dost-tanışı arayın,
Yollanın şən üzlə görüşə belə.

Ömrünüz qoy açsın ilk bahar ətri,
Başınız üstündə Tanrı çətiri,
Bəslənsin qəlblərdə sizdən ötəri,
Lalələr, nərgizlər, bənövşə belə.

Dərgaha yol açsın arzu diləklər,
Çatdırsın Allaha sübhi küləklər,
Gətirsin cavabın həqqdən mələklər,
Yaşatsın gülüşə-gülüşə belə.

Yazılsın ömürə sevgi dastanı,
Sevgiylə süsləsin insan insanı,
Səməndər diləyir ömrün hər anı,
Yaradan əl qoysun bu işə belə.

*16.05.2025, Qovlar*

## ANAR ÜÇÜN

*Əmim oğlu Aydının övladı Anarın Türkiyyənin Qars Vilayətində avtomobil qəzasında vəfat etməsinə*

Atan da, anan da qurban olardı,
Səni bu səfərdən saxlamaq üçün.
Hər yanda od vurub alov salardı,
Bu vaxtsız əcəli dağlamaq üçün.

Türkanın hönkürüb çin çin ağladı,
Kamilin naləsi ürək dağladı,
Turalın göz yaşı çoşub çağladı,
Getdiyin yolları bağlamaq üçün.

Niyə alışmadı Qarsın dağları,
Necə qəbul etdi ah harayları,
Daşıb selə döndü bu göz yaşları,
Bu qanlı qəzanı saxlamaq üçün.

İnsafı yoxdumu dağın daşında,
Apardı ömrünü cavan yaşında,
Bəlkə də dünyanın lap o başında,
Gedirmiş Tanrını haqlamaq üçün.

*24.11.2024, Yanıqpəyə*

## GETDİN

*Kəndimizin hörmətli ağsaqqalı Cəfər Əliş İsrafil oğlunun nəvəsi Raminin 15 yaşında xərçəng xəstəliyindən vəfat etməsinə*

Bir gül idin yaz gəlmişdin bağçaya,
Xəzən tez yetişdi soldun da getdin.
Atanın ananın arzularında,
Bir günəş boyunda oldun da getdin.

Dedin El üçün yanım odlanım,
Meydanda ər olum igid adlanım,
Niyyətin yetmədi kamina canım,
Bir əcəl sovğatı aldın da getdin.

İstəyin od tutub dasın odlansın,
Gəncliyin yetməmiş yaşın odlansın,
Lap göylər başına qara bağlasın,
Yerini torpağa saldın da getdin.

Ağlaya ağlaya qoydun ananı,
Qəminlə sındırıb əydin atanı,
Sizlada sizlada yazıq babanı,
Xəncəri köksünə çaldında getdin.

*24.11.2024, Qovlar Yanıqpəyə*

## İNCİMƏ

Eşq dediyin bir məsələdi dolaşıq,
Onun üçün gəl kimsədən incimə.
Qəbul eylə ürəyinə yaxdın,
Gen dolansa əgər səndən incimə.

Üz döndərib yan keçirsə qapıdan,
Arxasınca boylanaraq qalmadan.
Dərd eləyib ürəyinə salmadan,
Ürək yarıb qəlb bölmədən incimə,

De Səməndər nə bilir nə desin,
Ürəyində bir dastan var hər kəsin.
Tanrı yaradan yarın üzü dönməsin,
Dönsə əgər duman çəndən incimə.

*20.09.2025, Qovlar*

## SİZƏ SALAM GÖNDRƏRİRƏM

Axşam külək səhər mehdən,
Sizə salam göndərirəm.
Gül üstünə düşən şehdən,
Sizə salam göndərirəm.

Eşqlə döynən ürəyimlədi,
Əgər əysik gərgindən.
Halal süfrə çörəyimdən,
Sizə salam göndərirəm.

Sərin sərin yaylaqlardan,
Diş göynədən bulaqlardan.
Yaxlnlardan uzaqlardan,
Sizə salam göndərirəm.

O dağ sənin bu dağ mənim,
Ağac sənin budaq mənim.
Mənim qəlbim ürəklərim,
Sizə salam göndərirəm.

Səməndərin diləkləri,
Dost mülkünün diləkləri.
El obanin ürəkləri,
Sizə salam göndərirəm.

## ZAMAN VƏ İNSAN

Zaman oxdu, insan hədəf deyillər,
Saxlayan da oxlayan da bil odu.
Alax da var çiçək də var yamacda,
Solduran da bitirəndə bil odu.

Mən demirəm hər əzabla barışaq,
Bu zamanda dostcasina yarışaq.
Ağır yüngül işlərinə qarışaq,
Ağlr yüngül gətirən də bil odu.

Müvəqqəti gəmisinə minmişəm,
Vuruşmuşuq, əzilmişik, yanmışıq.
Çox əvvələ ucalmışıq,
Tullayan da götürən də bil odu.

Ömrü günü yatmaq ilə taladı,
Ocaq üstə kimi qaladı.
Qocalığı böyrümüzə caladı,
Bizi bizə yetirəndə də bil odu.

Di ay Qalya Səməndəri bir anla,
İllər keçir vuruşuriq bir anla.
Səməndər də gün oturub gumala,
Məni məndən ötürən də bil odu.

*21.09.2025*

## AÇIR

Qayna qazan, kükrə qazan, coş qazan,
Sən coşduqca ocaq gülür, kül açır.
Yemək ətri bihuş edir dostları,
Hər sifətdə neçə, neçə gül açır.

Köhlən atlar şahə qalır, kişnəyir,
Qayalarda kəklik susub dinşəyir.
Qartal hara qoyduğunu bilməyir,
O, qaynamaq həvəsinə dil açır.

Neçə yerdən əl uzanır üstünə,
Xoş məramla yığılırıq istinə.
Səməndəri həsrət qoyma isdinə,
Bir çömçə də Qivamiyə əl açır.

## YANIQPƏYƏ KƏND CAVANLARINA

Bir bağçayam göz oxşayan,
Gülüm sizsiniz sizsiniz.
Yol üstündə üstündə bir çinaram,
Qolum sizsiniz sizsiniz.

Hər biriniz bir zərrə dən,
Boy atırsz göyərmədən.
Səpələnən hər zərərdən,
Yolum sizsiniz, sizsiniz.

Bu dünyada dövlət varım,
El obaya etibarım,

Sağ qolunu övladlarım,
Solum sizsiniz, sizsiniz.

Hər bir gülün öz ətri var,
Hər baxışın göz ətri var,
Dodaqlarda söz ətri var,
Dilim sizsiniz, sizsiniz.

Səməndər ömür deyə,
Yavaş-yavaş uçur göyə.
Obamızdı yanıqpəyə,
Elim sizsiniz, sizsiniz.

## PARLASIN

Eşq dediyin bir dünyadır, bir dünya,
Bu dünyada ulduzunuz parlasın!
Ümidiniz qaranlığa düşməsin,
Ay əvəzi gül üzünüz parlasın!

Ətir saçsın ömrünüzün çiçəyi,
Titrəməsin bir yarpağı, ləçəyi.
Rəhmə gəlsin o göylərin mələyi,
Dil-ağızda xoş sözünüz parlasın!

Həsrət, hicran daim sizdən gen olsun,
Olsa-olsa, qısa olsun, kəm olsun.
Aralıqda sevinc, şadlıq, dəm olsun,
Sevən qəlbdə hey közünüz parlasın!

Elə keçsin bir-birinə qolunuz,
Ömürü boyu ayrılmasın yolunuz.
Ətir saçsın hey sağınız, solunuz,
Gəzdiyiniz yol, iziniz parlasın!

Yorulsanız, məhəbbətdən güc alın,
Xoşbəxtliyin zirvəsinə ucalın.
Səməndər tək gülə-gülə qocalın,
Sayənizdə qoy yüzünüz parlasın!



# MÜNDƏRİCAT

Qabaqda............................................................... 8
Gümandan keçir ..................................................... 9
Gətirsin.............................................................. 10
Gedərik............................................................... 11
İkilik.................................................................... 12
Dözmüşük ........................................................... 13
Bürmələnib bükülmüşük...................................... 13
Gəl, “hələlik...” söylə, “əlvida!...” demə!................. 14
İlim hey .............................................................. 15
Qalmışam ........................................................... 16
Gül açıb .............................................................. 17
Qalırıq ................................................................ 18
Gələnin ............................................................... 19
Eşq...................................................................... 20
Yazıb .................................................................. 21
Cırpışdırır ........................................................... 22
Qalmışam ........................................................... 23
Gələrəm .............................................................. 24
Bağışlar .............................................................. 25
Varmış................................................................. 26
Qocalıq ............................................................... 27
Göz açmış o bivəfa .............................................. 28
Qayıtdım............................................................. 29
Vaxtıdı................................................................ 30

Başıma ........ 31
Gözləmək ........ 31
Çoxdu ........ 32
Hər günün saatın hökmü var imiş... ........ 33
Mənəm ........ 34
Gətir ........ 35
Olsun ........ 35
İstəyir ........ 36
Balalar ........ 37
Bilinməz ........ 38
Mənim ........ 39
Aparma ........ 40
Vallah ........ 41
Ürəkdə ........ 42
Tərəf ........ 43
Güdaza tərəf ........ 43
Bilmədim ........ 44
Davasıdı ........ 44
Məni ........ 45
Yerində ........ 46
Vız ha vız ........ 47
Gedim ........ 48
Yağışdan sonra... ........ 49
Çal ........ 49
Deyin ağlamasın yetim neyləsin... ........ 50
Səməndər həsrətlə yol vərəqləyir ........ 51

Dolanaq .......... 52
Mübarək .......... 52
Qalxasız .......... 53
Səhərlər .......... 54
Görünmür .......... 55
...Nəvələrlə bəzənsin .......... 56
Yan, a bülbül .......... 56
Səhərlər .......... 57
Elə .......... 57
Titrəməsin .......... 58
Deyirsən .......... 59
Bilmirəm .......... 60
Sənsiz .......... 61
Gülüm .......... 62
Gəl .......... 62
Qardaş .......... 63
A Mehri .......... 63
Gözəldi .......... 64
Gözündə .......... 65
Yuxarı .......... 66
Axtarma .......... 67
Sən də gəl .......... 68
Bacılar .......... 68
Nədir gecə? .......... 69
Mübarək .......... 70
Mübarək .......... 71

M.Rəsulzadəyə ........................................................ 71
Danışaq............................................................................ 73
Xoş səhər arzuları ..................................................... 74
Gəlsin ............................................................................ 76
Olsun ............................................................................. 77
Olub................................................................................ 77
Bu gecə yuxuda cənnəti gördüm.............................. 78
Başımın üstə ................................................................ 79
Mənə çoxlu əllər uzanılmışdı................................... 79
Göz dolu ........................................................................ 81
Gərək ol ........................................................................ 81
Təbrikim........................................................................ 82
Gəl danış........................................................................ 83
Kiçik toyun mübarəkdi, mübarək............................. 84
Diz çöksün.................................................................... 85
Yaraşır.......................................................................... 87
Bunda ............................................................................ 88
Kəlbəcər ........................................................................ 88
Bu gözəl ......................................................................... 90
Əsgərlər......................................................................... 90
İgid əsgər, şanlı əsgər irəli ........................................ 91
...Əsgərlər..................................................................... 92
Əsgər ............................................................................. 93
Ay ana ........................................................................... 94
Civildə........................................................................... 95
Hay ha hay.................................................................... 96

Sözün ........................................................................ 97
Qocalıq ...................................................................... 98
Oğlan ........................................................................ 99
Yanıqpəyə uşaqları ............................................... 100
Sizsiniz ..................................................................... 101
Aparır ....................................................................... 102
Bilmirəm ................................................................. 103
Çəkən ....................................................................... 104
Sabahınız xeyir ........................................................ 105
Yoxdu ....................................................................... 106
Bu həyat ................................................................... 107
Yem edər ................................................................. 108
Aparır ....................................................................... 109
Bu gün ...................................................................... 110
Görəm ...................................................................... 111
Mübarək .................................................................. 112
Dostlar ..................................................................... 113
Gedir ........................................................................ 114
Yeri var .................................................................... 115
Əliylə ....................................................................... 116
Məndən ................................................................... 117
Olan yerdə ............................................................... 118
Ağlama, "Kərəmi", ağlama ................................... 119
Bayraq ..................................................................... 120
Karona xəstəliyinə ................................................. 120
Payız ........................................................................ 121

Əfsus ........................................................ 122
Bu həyat ........................................................ 123
Gətirsin ........................................................ 124
Mehriban ........................................................ 125
Nazənin ........................................................ 126
Deməк həyat davam edir ........................................ 127
Şükür ........................................................ 128
Kökü kəsilməz ........................................................ 129
Qazan ........................................................ 130
Məzun 78-in qrup üzvlərinə ........................................ 131
Dünya bizə neylədi ki? ........................................ 131
Od tuta, od tuta ........................................................ 133
Gənclik şeirləri ........................................................ 134
Xoş günləri ildən ilə aparım ........................................ 135
Aparsın ........................................................ 136
Həlak etdi ........................................................ 137
Üzünüzə hər bir səhər ........................................ 137
Keçən anlar dəqiqələr ........................................ 138
Açacaq ........................................................ 138
Şəhidlik ........................................................ 139
Oğlum ........................................................ 140
Olsun ........................................................ 141
Seçir ........................................................ 142
Beləcə ........................................................ 143
Gənclik illərinə aid şeir ........................................ 143
"Gülüstan" poemasına ........................................ 143

A qardaşlar, bacılar ................................................ 145
Həmişə xoş üzlə açsın səhəri .................................. 145
Sabahınız xeyir ....................................................... 146
Həyat nəbzini heç kəsə verməz ............................... 146
Danış Qalya, danış Mehri ....................................... 147
Ay yatanlar, tez qalxın ............................................ 148
Hər vaxtınız xeyir olsun, bacılar ............................ 148
Tək gəzər hansı gözəl ............................................. 149
Ömrə güllər açan gülləriniz var olsun ..................... 150
Bayatı ...................................................................... 150
Avazın xoş, sözün də xoş ........................................ 151
Kömək olsun yeri göyü yaradan ............................. 152
Kruq 78-in üzvlərinə ............................................... 152
Görüm ..................................................................... 153
Qalya qazan yandı, ey ............................................. 154
Yaşı-yaşa vurdunmu ................................................ 155
Dilindəki dilək mənim ............................................. 156
Çoxdan durub xoruz kişi ......................................... 157
Qazan, qazan axtarır, .............................................. 157
Ay hörmətli bacılar və qardaşlar ............................. 158
A Qalya, Qalya, Qalya ............................................ 158
Olaydım .................................................................. 160
Dağ vüqarlı qardaşlar .............................................. 161
Süfrə boşdu yeməyi yo, .......................................... 161
Olub ........................................................................ 163
Belə ........................................................................ 164

Anar üçün ........................................................................ 165
Getdin................................................................................ 166
İncimə............................................................................... 166
Sizə salam göndrərirəm ........................................... 167
Zaman və insan............................................................. 168
Açır .................................................................................. 169
Yanıqpəyə kənd cavanlarına.................................... 169
Parlasın............................................................................ 170

**Səməndər Nəsibli**

**GÖY QURŞAĞI**

*(şeirlər)*

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Ülviyyə İsrafilova

---

Çapa imzalanmışdır: 03.08.2026
Format: 60x84, 1/16; şərti çap vərəqi: 11,25
"Füyuzat" nəşriyyatının mətbəəsində
çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69
e-mail: fuyuzat2020@gmail.com



**Səməndər Məcid oğlu Nəsibli** 1953-cu ildə Tovuz rayonunun Qəribli Sovetliynin Yanıxpəyə kəndində anadan olub. 1978-ci ildə Gəncə Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirib. Tələbəlik illərindən dövri mətbuatda elmi, publisistik məqalələri və şeirləri ilə çıxış edib. 26 publisistik, 3 şeirlər kitabının müəllifidir.

*Yağışdan sonra göy qurşağıyıq,*
*Nəm çəkilən kimi ötüb gedirik,*
*Çəkilib göylərə hələ bir anlıq*
*Bizi sevənlərə əl də edirik.*

ISBN 978-9952-614-65-7
9 789952 614657